www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu  Gündəlik qəzet  11 avqust 2014-cü il  Bazar ertəsi  № 200 (5909)  Qiyməti 40 qəpik

**Xəbər**

## Nabranda dənizə sərxoş girən kişi boğularaq öldü

yazısı səh.14-də

**Gündəm**

### Putinin bütün layihələri iflasda - təhlil



Rusiya çökür; Avrasiya layihələri fiasko olan Kreml başçısı imperiya tarixində dəfələrlə sınaqdan çıxarılmış, lakin uğursuz bir modelə qayıdır

yazısı səh.9-da

### Alman radiosundan şok Qarabağ təhlili

yazısı səh.2-də

### Müxalifət son həbslərlə bağlı toplaşır

yazısı səh.5-də

### Amerikalı politoloqlar amerikalı həmsədrə qarşı

yazısı səh.11-də

### Xəstəlikdən kirayədə ölən gənc azərbaycanlı mayorun dramı...

yazısı səh.10-da

*"The Washington Post":*

### "ABŞ-ın İŞİD-i vurması onu daha da gücləndirəcək..."

yazısı səh.4-də

### Müharibə başlasa, siyasi mühacirlər vətənə dönərmi?

yazısı səh.12-də

### Rusiyanın Ukraynadakı baş separatçısı Kremlə ultimatum göndərdi

yazısı səh.9-da

### Dərnəgüldəki obyekt sahiblərinə bir həftə vaxt verildi

yazısı səh.12-də

*Qarabağ qazisi:*

### "Vətən üçün ölmək də lazımdır, öldürmək də..."

yazısı səh.7-də

### 7 uşaq anası imkanlılara və dövlətə səsləndi

yazısı səh.14-də

### Bir neçə dəfə ölüb-dirilənlərin ilginc hekayətləri "Yeni Müsavat"da...

yazısı səh.15-də

**Münaqişənin nizamlanmasına yönəlik Rusiya təşəbbüsü...**

# SOÇİDƏ QARABAĞ DANIŞIQLARI - NƏTİCƏ NƏDİR...

Azərbaycan və Ermənistan prezidentləri 9 aylıq fasilədən sonra Putinin vasitəçiliyi ilə bir araya gəldilər; görüşdə hər hansı sənəd, birgə bəyanat qəbul edilmədi; İlham Əliyev Kreml başçısının qarşısında Sərkisyana "İşğalçı qoşunlar ərazimizdən çıxmalıdır" dedi; ekspert: "Savaş ehtimalı əvvəlki tək qalır..."



Toğrul İsmayıl

yazısı səh.8-də

# Türkiyə xalqı 12-ci prezidentini özü seçdi

Səsvermə günü yüksək fəallıq nümayiş etdirən qardaş ölkə toplumu daha bir tarixi ilkə imza atdı; ilkin nəticələrə görə ikinci tura ehtiyac qalmadı...

yazısı səh.3-də



### Xədicə İsmayıl Aslan İsmayılovu təhqir etdi

yazısı səh.6-da



### İntiqam Əliyev öz həbsi barədə nə düşünür - həbsxanadan açıqlama

yazısı səh.6-da



### Arif Əsgərovun "korrupsiya qatarı"ndan bəzi qeydlər

yazısı səh.13-də

**11 avqust 2014**



# Hillari Klinton İsrailin müdafiəsində Netanyahunu da keçdi

## Avropa antisemitizmdə, media isə qərəzli olmaqda ittiham edildi

**"The Times of İsrael" qəzetinin suallarını cavablandıran ABŞ-ın keçmiş dövlət katibi Hillari Klinton İsrailin baş naziri Benyamin Netanyahunu müdafiə etdiyini bildirib. Klintonun ABŞ prezidentliyinə namizəd ola biləcəyini vurğulayan qəzet "islam ekstremizmi" ifadəsini məqalə boyu dönə-dönə işlədib.**

ABŞ-ın keçmiş dövlət katibi İsrailin Qəzzada həyata keçirdiyi hərbi əməliyyatları dəstəkləyib, baş verən münaqişəyə və gərginliyə görə bütün günahları "Həmas"in üzərinə qoyub. Uşaqların ölümünə görə də Həmasi ittiham edib, günahsız insanların qətlində də Həması suçlayıb. Onun dediyinə görəb İsrail isə Həmasdan fərqli olaraq öz xalqını müdafiə edir və bölgədə sülhə nail olmağa can atır.

O deyib ki, Suriyada Bəşər Əsədə qarşı üsyan qalxanda Obama administrasiyası üsyançılara dərhal kömək etmədi. Nəticədə cihadçılar Bəşər Əsədə qarşı mübarizədə irəli çıxdılar. Xanım Hillari bildirib ki, Barak Obama xarici siyasətdə həddən artıq ehtiyatlı addımlar atır. Onun qənaətincə, İsraillə savaşda olan Həmasın aqressiv davranışları onu heyrətdə qoyub.

**İsrailin Fələstinə endirdiyi zərbələrin qeyri-adekvat olması ilə bağlı suala da Hillari Klinton yəhudilərin belə həsəd aparacağı şəkildə cavab verib:** "İsrail Qəzzadan atılan raket hücumlarına məruz qalmışdı. Həmasın atdığı addımlar, tunellərin qazılması, raketlərin yaradılması başa düşülən deyil. Həm də onlar bu kimi fəaliyyətlə mülkü adamların yaşadığı yerlərdə məşğul olurlar. Əlbəttə, İsrail, ABŞ və ya istənilən demokratik ölkə kimi mülki şəxslər arasında itkiləri minimuma endirməyə çalışmalıdır".

**ABŞ-ın keçmiş dövlət katibi bir az da irəli gedib. Sanki Qəzzada qətl edilənlərin sayının 2 min nəfəri ötməsindən xəbərsiz kimi görünərək deyib:** "İndi biz İsrailə qarşı beynəlxalq səviyyədə mənfi reaksiyanı aydın görürük. Bu reaksiya yersizdir və ədalətli deyil".

Onun fikrincə, dünyada antisemitizmin güclənməsi fonunda beynəlxalq ictimaiyyətin İsrailə münasibəti daha çox qərəzli olub...

**Xanım Klinton Avropada İsrail əleyhinə olan mitinqlərə də etirazını bildirib. O, bunu da Avropada hələ də antisemitizmin dəbdə olması ilə izah etməyə çalışıb. Media da bu iddialı xanımın qəzəbinə gəlib:** "Dünya mediası münaqişəni qərəzli və birtərəfli işıqlandırır... Bir qayda olaraq Həmasın dünyaya göstərmək istədiklərinə Qərb jurnalistlərinin girişi olur. Və tamaşaçılar həmin məqamları televiziyalarda izləyirlər. Bu təbliğatın köhnə variantıdır, İsrail isə bu cür təbliğatdan istifadə edə bilmir"...

❑ **Elbəyi HƏSƏNLİ (Sürix)**

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat » qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

# Alman radiosundan şok Qarabağ təhlili

## "Amerika və NATO Qarabağa can atır..."

**Almandilli "Stimme Russlands" radiosunun yaydığı xəbərdə deyilir ki, Dağlıq Qarabağda münaqişənin yenidən aktiv mərhələyə daxil olmasının qarşısının alınması üçün Rusiya hərəkətə keçib. Prezident Vladimir Putinin Soçidəki iqamətgahında Qarabağ probleminə dair Azərbaycan və Ermənistan prezidentləri - İlham Əliyev və Serj Sərkisyanla danışıqlar aparıb.**



Aydın görünür ki, Rusiyanın bu məsələdə xüsusi fəallığı var. O da bəllidir ki, ABŞ və NATO-nun bu münqaişənin həlli ilə bağlı planı Rusiyanın nəzərdə tutduqlarından fərqlənir.

Bəziləri iddi edirlər ki, prezident Putin öz imicini müsbətə doğru dəyişmək üçün bu görüşə xüsusi maraq göstərir. Putin bütün dünyaya nümayiş etdirmək istəyir ki, o, münaqişənin sülh yolu ilə həllində maraqlıdır.

NATO-nun Cənubi Qafqaz üzrə əlaqələndiricisi Ulyam Lahue Dağlıq Qarabağda baş verən son olaylardan narahatlığını ifadə edib. O bildirib ki, ABŞ və NATO-ya görə narahatlıq göstərənlər nədənsə bəlaya düçar olurlar. Xüsusilə neft və qazı olanların belə narahatçılığına daha həssas yanaşılır...

Göründüyü kimi, Qərb son vaxtlar Dağlıq Qarabağda baş verən olaylara görə Rusiyanın maraqlı olduğunq dilə gətirir. Eyni zamanda Ukrayna olaylarının səbəbini də diplomatik dillə açıqlayır. ABŞ və NATO-ya isti münasibətdə olan Azərbaycanın məhz Rusiyanın təzyiqi ilə Ermənistan tərəfdən yenidən münaqişəyə cəlb olunduğu vurğulanır...

"Stimme Russlands" radiosu bu yanaşmaya rusiyalı keçmiş diplomat

Vladimir Stupişinin münasibətini də açıqlayıb. Cənab Stupişin deyib ki, Putin tamamilə haqlıdır. Amerikanın sülhyaratma missiyası həmişə faciələrlə yekunlaşır. İraq, Əfqanistan, Liviya kimi ölkələrdə biz bunun şahidi olduq. İndi onlar Suriyada da eyni əməlləri törətmək istəyirlər. Amerika haraya giribsə oralar xaraba qalıb. Veytnamda da belə olmuşdu. Çünki xalqlar özləri istədikləri kimi yaşamağa üstünlük verirlər. Amerikanın diktəsi onlara xoş gəlmir. Ola bilər ki, bu siyahıda Ukrayna istisnalıq təşkil edir.

Diplomat vurğulayıb ki, ABŞ-ın Dağlıq Qarabağla bağlı planı belədir. Ermənistan Dağlıq Qarabağ ətrafındakı bəzi rayonları Azərbaycana qaytarmalıdır. Sonra Amerikaya bağlı sülhməramlı qüvvələr regiona yeridilməlidir. Bu isə o deməkdir ki, ABŞ həm yaxınlıqdakı İrana, həm də ki, Azərbaycan və Ermənistana nəzarəti daha da gücləndirə biləcək....

Rusiya isə belə bir fikirdə deyil. Moskva deyir ki, Azərbaycan və Ermənistan münaqişə zonasında vəziyyəti stabilləşdirmək üçün gərəkən addımlar atmalıdır.

❑ **Elbəyi Həsənli (Sürix)**

# İranda sərnişin təyyarəsi qəzaya uğradı

## 7-si uşaq olmaqla, 40 nəfər öldü...

**Avqustun 10-da İranın paytaxtı Tehran şəhəri yaxınlığında təyyarə qəzaya uğrayıb. APA ttp://apa.az/-nın İRNA-ya istinadən verdiyi məlumata görə, qəza nəticəsində 40 nəfər ölüb. Ölənlərdən 7-si uşaqdır. Təyyarənin göyərtəsində ümumilikdə 48 nəfər olub.**

İlkin məlumatda qəza nəticəsində "An-140" tipli təyyarədə olanların hamısının öldüyü bildirilsə də, az sonra İranın nəqliyyat nazirinin köməkçisi Əli Reza Cahangirian "Fars" agentliyinə bildirib ki, qəza zamanı sağ qalanlar var.

"Təyyarə uçuş zolağından 4 mil aralıda qəzaya uğrayıb. Sərnişinlərdən bir neçəsi yaralanıb, onlar xəstəxanaya çatdırılıblar", - deyə nazir köməkçisi qeyd edib. Ə. R. Cahangirian onu da əlavə edib ki, təyyarə meşə massivində düşdüyü üçün yerdə ölənlər və dağıntı olmayıb. İlkin ehtimala görə, qəzaya mühərrikin texniki nasazlığı səbəb olub. "Sepahan Airlines" şirkətinə məxsus təyyarənin havaya qalxandan bir neçə dəqiqə sonra qəzaya uğradığı bildirilir.

# Bakıda aptekə silahlı basqın - biznesmen yaralandı

**Bakıda quldurluq hadisəsi baş verib. Yasamal Rayon Polis İdarəsindən lent.az-a verilən məlumata görə, Şərifzadə küçəsi, 131 ünvanında yerləşən aptekə 2 nəfər naməlum şəxs basqın edib. Bıçaqla silahlanmış həmin şəxslər aptekin sahibi, 1960-cı il təvəllüdlü Quliyev Orucəli Tapdıq oğlunu vurublar.**

Onlar obyekt sahibini bıçaqladıqdan sonra aptekdə axtarış aparıblar və 220 manat pulu götürərək qaçıblar. Hazırda basqınçıların şəxsiyyətinin müəyyən edilərək saxlanılması istiqamətində iş aparılır.

# Əsgərlərimiz Ermənistanda iki evi xaraba qoydu

**Azərbaycanla sərhəddəki Tavuş rayonunun Ayqepar kəndindəki iki ev Azərbaycan ordusunun iriçaplı silahlardan açdığı atəş nəticəsində tamamilə yanaraq məhv olub. Virtualaz.org saytı interfax-a istinadən bildirir ki, bunu jurnalistlərə bugünkü açıqlamasında Ayqepar kəndinin icma başçısı Andranik Aydınyan deyib.**

"Azərbaycan tərəfdən iriçaplı silahlardan atırdılar. Avqustun 10-na keçən gecə saat 2-dən atmağa başladılar. Ta saat 7-nin yarısısna qədər atdılar. İki evdə yanğın başladı. Yanğınsöndürənləri və xilasediciləri çağırdıq. Amma onlar atışmadan qorxub hadisə yerinə yaxınlaşmadılar. Hər iki ev yanıb məhv oldu", - deyə A.Aydınyan bildirib.

Ermənistanın Fövqəladə Hallar Nazirliyindən bildiriblər ki, evlərdə yanğının başlaması xəbəri onlara saat 04:20-də daxil olub. FHN kəndə iki yanğınsöndürən maşın göndərsə də atışma üzündən hadisə yerinə yaxınlaşa bilməyiblər.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33



# "Yavaş-yavaş özümə gəlirəm"

**"Deyəsən, sağalıram. Yavaş-yavaş özümə gəlirəm". Bunu aznews.az-a açıqlamasında yenicə əməliyyat olunmuş Azərbaycanın keçmiş təhsil naziri Firudin Cəlilov bildirib.**

Onun sözlərinə görə, əməliyyat ağır olduğundan bərpa prosesi çətin gedir: "Əməliyyat ağır oldu, bərpa prosesi də çətin gedir. Allaha şükür ki, özümü yaxşı hiss edirəm. Amma bundan sonra nə olacaq, Allaha bağlı". F.Cəlilov onu da dedi ki, hər 3 aydan bir Türkiyəyə gedib müayinədən keçməlidir.

Qeyd edək ki, sabiq nazir ürək-damar xəstəliyindən əziyyət çəkir. O, bununla bağlı Türkiyədə əməliyyat olunub.

# "Tövsiyələrə baxmayaraq, vətənə dönürəm"

**"Çalışmaq və özümü reallaşdırmaq üçün müxtəlif ölkələr uyğun olsa da, yaşamaq üçün başqa məkan seçmək niyyətində deyiləm. Hələ bir müddət Bakıda olacağam".**

**axar.az xəbər verir ki, bu sətirləri İqtisadi Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin üzvü Qubad İbadoğlu** facebook səhifəsində yazıb. Hazırda Qırğızıstanda olan Q.İbadoğlu qeyd edib ki, 20 gündür Bişkekdə işgüzar səfərdədir: "Bu günlərdə yerli hökümət və mədən sənayesində çalışan xarici şirkətlərlə məhsuldar işlədim. Qırğızıstanın inkişafı üçün bacardığımı edə bildim, işimdən dostlarımız da çox razı qaldı, özüm dəb açığı, hökumətlə işləməkdən zövq aldım. Orda və kənarda olan bir çox dostlarım ölkədəki vəziyyəti nəzərə alaraq mənə çox təkidlə gözləməyi tövsiyə etsələr də, onlara təşəkkürlər deyərək, yoluma davam edirəm və indi vətənə dönürəm".

**Q.İbadoğlu əlavə edib:** "Bilin ki, məni də hara çağıracaqlarsa, ora da gedəcəm, çünki özümə və işimə güvənirəm. İndiyə qədərki fəaliyyətimdə dürüst olmuşam və həmişə qanunların aliliyinə inanıb, onları işimdə tətbiq etmişəm. Əminəm ki, vətəndaş cəmiyyətimizin böhrandan çıxmasına tezliklə nail olacağıq".



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Günün içindən

YENİ MÜSAVAT
N 200 (5909) 11 avqust 2014

**Dünən Türkiyə Cümhuriyyəti tarixində ilk dəfə olaraq birbaşa prezident seçkiləri keçirilib. Seçkilərin əsasən iki favorit namizədi olub - ölkənin hazırkı baş naziri, AKP lideri Rəcəb Tayyib Ərdoğan və müxalifətin vahid namizədi, İslam Əməkdaşlıq Təşkilatının sabiq sədri, professor Ekmələddin İhsanoğlu. Üçüncü namizəd Xalqların Demokratik Partiyasının (HDP) namizədi Səlahəddin Dəmirtaş idi.**



# Türkiyə xalqı 12-ci prezidentini özü seçdi

## Səsvermə günü yüksək fəallıq nümayiş etdirən qardaş ölkə toplumu daha bir tarixi ilkə imza atdı; ikinci tura ehtiyac qalmadı; Türkiyə Ərdoğanla yola davam edəcək...

Qəzetimizin Türkiyəyə ezam edilmiş əməkdaşının verdiyi məlumata görə, dünən Bakı vaxtilə saat 10:00-da prezident seçkilərinə start veriləndən sonra seçici fəallığı ilk saatlarda aşağı olsa da günortaya yaxın məntəqələrə axın başlanıb.

Səsvermə yerli vaxtla saat 17:00-a (19:00 - Bakı) kimi davam edib. Seçkilərdə 52 milyon 894 min 115 qeydiyyata alınmış seçicinin səsvermə hüququ olub. Avqustun 11-də seçkilərin ilkin nəticələri elan ediləcək. Avqustun 15-də isə MSK rəsmi nəticələri açıqlayacaq.

Seçkilər günü ölkədə istənilən əyləncə proqramı və spirtli içkilərin satışı qadağan olunub. Xalq tərəfindən seçiləcək prezidentin səlahiyyət müddəti 5 il olacaq. 5 il sonra eyni şəxs ikinci dəfə namizədliyini verə bilər.

Seçkilər günü ölkədə istənilən əyləncə proqramı və spirtli içkilərin satışı qadağan olunub.

### Seçkiyə ilk gələn Ekmeleddin İhsanoğlu oldu

Əməkdaşınızın məlumatına görə, prezidentliyə namizədlərdən səsvermə məntəqəsinə ilk gələn Türkiyə müxalifətinin vahid namizədi professor Ekmeleddin İhsanoğlu olub. Onun xanımı Füsun İhsanoğlu ilə seçki məntəqəsinə gələn İhsanoğlu səs verdikdən sonra mediaya qısa açıqlama verib: "Öncə mənim sizə sualım var. Sesvermə hüququnuzdan istifadə etdinizmi? Bu, müqəddəs bir görəvdir. Bu görəvi hamımız yerinə yetirməliyik. İnşallah, bu gün axşam Türkiyə prezidentinin kim olduğunu öyrənəcəyik".

İhsanoğlu seçki bitəndən sonra seçki kampaniyasındakı qanun pozuntuları ilə bağlı məhkəməyə şikayət veriləcəyini deyib: "Ancaq biz millətimizin fəhminə inanırıq. Bizim istəyimiz seçkilərin barış içərisində, ədalət prinsipləri ilə keçirilməsidir. Səhər saatlarından aldığımız bilgiyə görə, bəzi seçki məntəqələrində qanun pozuntuları qeydə alınıb, bunlarla bağlı məhkəməyə müraciət ediləcək. Bu gün bütün dünyanın gözü Türkiyədədir. Türkiyə dövlətinin nüfuzuna xələl gətirən heç bir hərəkətə yol verilməməlidir".

Müxalifətin vahid namizədindən az sonra Selahettin Dəmirtaş da səs verib. Diyarbəkirdəki bir məktəbdə səs verən Demirtaş oraya həyat yoldaşı və qızları ilə gedib. Demirtaş qısa açıqlamasında Türkiyəni barış içərisində görmək istədiyini deyib.





### Ərdoğan özünə səs verib

**AKP-nin namizədi Rəcəb Tayyib Ərdoğan** isə səsvermə hüququndan saat 14-də, İstanbulda istifadə edib. Baş nazir Üsküdar məktəblərindən birinə ailəsi ilə gəlib. Oğlu Bilal Ərdoğan, qızı Sümeyya Ərdoğan, Zehra Albayrak və kürəkənləri baş naziri müşayiət edib. AKP namizədi seçkilərdə seçici fəallığının yüksək olacağına ümidvar olduğunu bildirib. Ölkədə keçirilən prezident seçkilərin Türkiyənin gələcəyi üçün çox önəmli olduğunu qeyd edib.

**Səsvermə zamanı Ərdoğanın əhvalının çox yüksək olduğu diqqətdən qaçmayıb. Seçki məntəqəsi çalışanları ilə zarafatlaşan AKP namizədi səs verəndən sonra mediaya qısa açıqlama verib:** "Türkiyənin siyasi tarixi baxımından 10 avqust seçkiləri çox önəmlidir. Bu tarixin nə qədər önəmli olduğunu aylardır meydanlardan xalqa anlatmağa çalışırıq. Türkiyə həyəcanlı bir sürəcdən keçərək seçkinin son mərhələsinə gəlib. İnanıram ki, millətin seçki boyu baş verən olayları düzgün dəyərləndirmək fürsəti oldu. Yaşadığımız dönəm Türkiyə demokratiyası üçün də son dərəcə önəmli mərhələdir. Bu gün xalqdan Türkiyəni idarə etmək üçün səs alan şəxs qərarlı bir şəkildə Türkiyəni demokratiya yolunda gələcəyə aparacaq. İnanıram ki, bu seçki ölkəmiz, dövlətimiz, eyni zamanda demokratiya üçün xeyirli olacaq".

Üsküdarda səs verəndən sonra evinə gedəcək Ərdoğanın saat 17-yə yaxın Haliç Konqres Mərkəzində mətbuat konfransı keçirəcəyi gözlənilirdi.

### Müxalifət öz namizədinin qələbəsinə inanır

Müxalifət liderləri sırasında səhər seçki məntəqəsinə ilk gedən Cümhuriyyət Xalq Partiyasının sədri Kemal Kılıçdaroğlu olub. Kılıçdaroğlu bütün seçiciləri səsvermə hüququndan istifadə etməyə çağırıb: "Bu gün milli iradənin qalib gəlməsini, Türkiyənin barış və demokratiya içərisində gələcəyə yürüməsini istəyirik. Bu gün kim seçilərsə biz xalqın səsinə sayğı ilə yanaşacağıq".

**Ardınca Milliyətçi Hərəkat Partiyasının lideri Devlet Bahçeli** səs verib. D.Bahçeli Ankarada evinə yaxın məktəbdə səs verib və xalqa səslənib: "Bu gün Türkiyə tarixinin çox önəmli günüdür. Bütün vətəndaşlarımızı bu günün dəyərini anlamağa çağırıram. Millətimizə, dövlətimizə xeyirli, uğurlu olsun".

### "Hamı yeni prezidenti tanısın!.."

Türkiyə Böyük Millət Məclisinin sədri Cəmil Çiçək də seçkinin ilk saatlarında seçki məntəqəsinə gedib. Mediaya açıqlamasında Çiçək 10 avqustda Türkiyənin demokratik seçki tarixinə şanlı bir səhifə yazmağını istədiyini deyib: "Türkiyə cəmiyyətinin bir pis adəti var - seçki başa çatır, seçki davam edirmiş kimi dartışmalar aylarla sürür. Fikrimcə, seçki günü başa çatmalı, millətin iradəsinə sayğı duyulmalıdır. Sabahdan biz seçilən şəxsən şəxsə "sayın cümhurbaşkanı" deməyi bacarmalıyıq".

**Prezident Abdullah Gül isə Ankarada səs verib.** Həyat yoldaşı Hayrunnisa Gül ilə seçki məntəqəsinə gələn Abdullah Gül Türkiyə prezidenti kimi sonuncu dəfə səs verib: "Türkiyə Böyük Millət Məclisinin seçdiyi son prezident olaraq sonuncu dəfə səs verirəm. Yadınıza gəlirsə, 7 il öncə prezident seçildiyim zaman hüquq və demokratiyaya uymayan olaylar yaşandığı üçün Ana Yasaya dəyişiklik etmək məcburiyyəti hiss etmiş, bundan sonrakı prezidentləri xalq seçsin qərarını vermişdik. Daha sonra referendum keçirərək bu məsələ ilə bağlı xalqın qərarını da aldıq. Bundan sonrakı bütün prezidentləri xalq seçəcək. Bunun Türkiyə üçün xeyirli olmasını arzu edirəm".

**P.S.** *Qəzet çapa gedərkən səsvermənin ilkin nəticələri açıqlandı: Ərdoğan seçici səslərinin 52%-ni qazanıb. İhsanoğlu 38%, Dəmirtaş isə 9% səs alıb. Seçici fəallığı ölkə üzrə 77% təşkil edib.*

**Beləliklə, ehtimalən, ikinci tura ehtiyac qalmayacaq.**

❑ **Hazırladı: Siyasət şöbəsi**

# İti bazarında ... baha!



Elşad MƏMMƏDLİ
elshad1978@mail.ru

## Yaxud it başı kəsməklə adam başı kəsməyin fərqi...

**Deyilənə görə, dünya qloballaşır, inkişaf edir, demokratikləşir. Bu inkişaf mərhələsində biriləri cəmiyyətləri, fərdləri hətta gərəksiz, iyrənc şeylərə belə "dəyər", "insan haqları" prizmasından yanaşmağa səsləyir, bəzən isə məcbur edirlər. Ancaq bütün bunlara rəğmən Yer üzünün ən ali varlığı olan insanın özü dəyərdən düşüb!**

Təxminən 25 il öncə, sovetlər dağılan ərəfədə, necə deyərlər, ara qarışıb məzhəb itən vaxt dəyərli şairimiz Məmməd Araz şeirlərindən birində yazmışdı:

***...İti bazarında atından baha,***
***Mən belə dünyanın nəyindən küsüm?***

İndi isə bu dünyanın bazarında ən ucuz, dəyərsiz varlıq adamdır, adam! Sübut istəyirsiniz?

5-6 ay qabaq Quba rayonunda iki nəfər köməkləşib bir itin başını kəsmişdilər, bunun videosunu çəkib sosial şəbəkələrdə paylaşmışdılar. Nəinki Azərbaycanda, bir sıra xarici ölkədə də bununla bağlı yekə hay-küy qaldırıldı. Həmin gəncləri tutdular, inzibati qaydada cəzalandırdılar, cərimə etdilər. Bəli, dilsiz-ağızsız heyvanı nəinki bu şəkildə öldürmək, hətta incitmək belə olmaz, Allahın haram buyurduğu bir əməldir.

Bu hərəkət dünyanın hansısa başqa ölkəsində də edilsəydi, çox böyük rezonans olacaqdı. İnsanlar susmayacaqdılar.

Ancaq bu gün dünyada hər gün insanların başları kəsilir, bunun videosunu da çəkib sosial şəbəkələrdə paylaşırlar. Təbii ki, bu kadrlar ilk vaxtlar rezonans, hiddət doğurdu, ancaq indi daha bunlara heç əhəmiyyət verən yoxdur. Sosial şəbəkələr belə videolarla doludur, iki gün öncə daha biri yayıldı, ancaq nə Azərbaycanda, nə də dünyanın demokratiya beşiyi sayılan yerlərində buna ciddi bir təpki yoxdur. Bir itin başı kəsiləndə Azərbaycanda xeyli şəxslər və həmçinin bundan xəbər tutan heyvan hüquqlarının müdafiəsi ilə məşğul olan beynəlxalq təşkilatlar böyük səs-küy salmışdılar. Ancaq bütün dünyanı sarsıdan - insan başının kəsilməsi nümayiş etdirilən videolar sanki daha kimsənin vecinə deyil, belə də olmalı imiş!

İnsanlıq ölübmü? Yoxsa gerçəkdən bu dünyanın bazarında artıq it atdan yox, adamdan da bahadır? Bu vəhşiliklər bütün dünyanın gözünün qarşısında baş verir və məlum qəddarlıqlar sanki bilərəkdən adiləşdirilir, bunlar durdurulmur, məlum cinayətləri törədənlər zərərsizləşdirilmir. Məgər insanın başının kəsilməsi insanlıq əleyhinə cinayət, insan həyatına qəsd deyilmi? İnsan hüquqlarından dəm vurulursa, nədən insan həyatının özü bəşəriyyəti idarə edən qüvvələri, demokratiya paytaxtlarını, bütünlükdə cəmiyyətləri, insanları narahat etmir?

Bu yaramazlıqları, cinayətləri İŞİD adı ilə tanınan bir dəstə quldur yığını edir. Və guya bu boyda dünya, Amerika, Avropa, İslam dünyası yığışıb bu quldur dəstəsinin qarşısını ala bilmir. O boyda bin Ladeni, Qəzzafini, Səddam Hüseyni tutub məhv edənlərin bir terrorçu təşkilatla bacarmaması inanılmazdır. Əksinə, iddialar var ki, bu vəhşilərə gizlicə dəstək də verilir müsəlmanlar arasında çaxnaşmanı böyütmək üçün. Və maraqlıdır ki, müsəlman cəmiyyətləri də susur, bəziləri isə bu proseslərdə hansısa formada hətta iştirakçı olur!

**Bütün bu müşahidələrdən sonra formalaşan bir düşüncə var; dünyanın "inkişaf tendensiyası" heç də insanlar üçün deyil, insanlıq əleyhinədir! 21-ci əsrdə baş verənlər daha əvvəlki əsrlərdə baş vermirdi axı. "İnkişaf"ın, maraqların təminatının bu məcraya yönəlməsi "İnsanlıq ölmüş, arkadaş" deyimini aktuallaşdırır, təsdiqləyir. İqtisadi, siyasi, hüquqi inkişafı-filanı buraxıb insanlığın inkişafına başlamaq lazımdır...**

YENİ MÜSAVAT
N 200 (5909) 11 avqust 2014

# Amerikanın İŞİD-i vurması onları daha da gücləndirəcək

## “The Washington Post” son hadisələri təhlil edir

**“The Washington Post” qəzetinin bugünkü sayında ABŞ-ın İslam Şam İraq Dövləti (İŞİD) adlanan terrorçulara hücumundan sonra yaranmış vəziyyətlə bağlı araşdırmaların nəticəsi barədə geniş məlumat verilib. Amerika rəsmilərinə istinad edən qəzet bildirir ki, İŞİD-ə qoşulmaq üçün onların nəzarətində olan ərazilərə digər terrorçu qruplardan kütləvi axın başlayıb.**

Yəmən və Afrikada “əl-Qaidə”dən qopmuş qruplar onun rəqibi kimi ortaya çıxmış İŞİD-ə birləşməyə can atırlar. Bu barədə ABŞ kəşfiyyat orqanlarında səhih məlumatlar var. Terror üzrə mütəxəssislər qəzetə bildirib ki, Amerikanın qırıcı uçaqlar vasitəsi ilə İŞİD-i vurması bu təşkilatı daha da gücləndirə bilər. Cihad arzusunda olanları ABŞ-a qarşı nifrət hissi bir araya gətirir. Üstəlik, İŞİD-in son zamanlar əldə etdiyi qələbələr digər terrorçular üçün də son dərəcə cəlbedici görünür.

İŞİD eyni zamanda müxtəlif istiqamətlərdəki məntəqələrə o qədər sürətli və qəfil hücumlar təşkil edir ki, İraq hökuməti bu hücumlara cavab verməyə belə macal tapmır. Ona görə də İŞİD həm psixoloji, həm də taktiki baxımdan ciddi üstünlüklərə malikdir. Həm də İŞİD Suriya prezidenti Bəşər Əsədə qarşı müharibədə xeyli təcrübə əldə edib. Amerika İraqda olarkən onlara qarşı da silahlı mübarizə aparıb. İŞİD-in keçirdiyi qanlı reydlər, girovlara görə qanpulu alınması onların silaha və nağd pulla olan ehtiyacını artıqlaması ilə ödədi. Digər tərəfdən də sünni olub, İraq təhlükəsizlik orqanlarında çalışan insanların bir çoxu İraqın şiə hökumətinin apardığı ayrı-seçkilik siyasətinə etiraz olaraq İŞİD-ə qoşulur.

İŞİD-in bir sıra əməliyyatları impulsiv xarakter daşısa da onlar terror aktlarını “əl-Qaidə”dən daha bacarıqla həyata keçirirlər.

“CIA” Amerika kəşfiyyat xidmətinin anti-terror analitikləri xatırladırlar ki, ABŞ Əfqanıstanda “əl-Qaidə”yə qarşı hərbi əməliyyatları genişləndirdikdən sonra bu təşkilata axın daha da gücləndi. Və “əl-Qaidə”nin əhatə dairəsi daha da geniş oldu. Bəs indi necə olacaq? Adının açıqlanmasını istəməyən ABŞ rəsmilərindən biri “The Washington Post” a bildirib ki, eyni tendensiyanın baş verəcəyi gözlənilir.

ABŞ rəsmiləri onu da bildirirlər ki, indiyə qədər bütün imkanlarını İslam Dövləti adlı xilafəti yaratmağa cəmləmiş İŞİD Amerikanın nişangahına çevrildikdən sonra nəzarət etdiyi ərazilərdən çox-çox uzaqlara olan yerlərdə ABŞ və onun müttəfiqlərinə qarşı terror əməliyyatları keçirə bilər.

Hazırda cihad qruplaşmalarına daxil olanlar “Shumukh al-İslam” kimi online sosial şəbəkələrdə bir araya gələrək, hamını ABŞ-a qarşı birləşməyə çağırırlar. Hər yerdə Amerikaya və onun “cinayətkar əsgərlərinə qarşı vuruşmağa” səsləyirlər.

Qəzet yazır ki, “əl-Qaidə”dən kənarda qalmış xeyli terrorçu qruplar var. Onlar da İŞİD-ə qoşulmağa maraq göstərirlər.

Amerika rəsmiləri bildiriblər ki, onların hesablamasına görə, İŞİD-in sıralarında 10 min döyüşçü var. Onların 3-5 min nəfəri Suriya və İraq əsillidir.

**ABŞ Milli Kəşfiyyat idarəsinin direktoru Ceymis Klapper** deyib ki, İŞİD-in ABŞ-a qarşı törətdiyi hər hansı bir terror əməli indiyə kimi qeydə alınmayıb. Amma bu istisna da edilmir.

**Qəzet yazır ki, Floridada yaşayan Amerika vətəndaşı Moner Məhəmməd** bir neçə dəfə Suriyada olub. Orada terrorçu qruplar tərəfindən təlimlər keçib. Sonra yenidən ABŞ-a qayıdıb. Bir müddət sonra isə Suriyaya dönərək orada üzərində olan bombanı partlatmaqla terror aktı həyata keçirib. Düzdür, o, İŞİD-lə əlaqədə olmayıb. Ancaq İŞİD-lə əlaqədə olan Amerika əsilli onlarla terrorçu var.

**Məqalədə deyilir ki, İŞİD bu ilin əvvəllərinə qədər “əl-Qaidə”nin bir qolu kimi fəaliyyət göstərib.** Ancaq onlar bir sıra hərəkətlərdən dolayı, o cümlədən mülki vətəndaşlara divan tutduqlarına görə “əl-Qaid”ə ilə münaqişəyə gediblər. Digər səbəb isə odur ki, “əl-Qaidə” Suriyadakı anti-Əsəd davasından İŞİD-i kənarlaşdırmaq istəyirdi. İŞİD isə təlimata uyğun olaraq öz yerini “əl-Nusra”ya vermək istəmədi. Bu ziddiyyətlər İŞİD-i “əl-Qaidə”dən ayırdı...

Bu ayrılıqdan sonra İŞİD ağlasığmaz uğurlar qazandı. İndi onun ordusu, nağd pulu, ərazisi və heyrət doğuran reytinqi var.

Xilafət yaratmaqla isə Əbu Bəkir Bağdadi 2006-cı ildə Amerikanın qətlə yetirdiyi Abu Musab əl-Zaqravin ən böyük arzusunu həyata keçirdi. Qeyd olunur ki, Əbu Bəkir Bağdadi məhz o vaxt bu şəxsin yerinə keçərək “İraq əl-Qaidə”si kimi tanınan qrupa rəhbərlik etdi. Və zamanı gəldikdə böyük məharətlə “əl-Qaidə”dən ayrıla bildi.

**İŞİD-in manevir etməkdə çevikliyinə indi “əl-Qaidə”də həsəd aparır...**

❑ **Elbəyi HƏSƏNLİ (Sürix)**



# ABŞ-ın bombardmanları İŞİD-ə mesajdır

## Ekspertə görə, Ağ Ev bununla eyni zamanda kürdlərə göstərmək istədi ki, Vaşinqton xaricində heç bir region ölkəsi onların təhlükəsizliyinin qarantı ola bilməz...

**İraq və Suriyanın bir hissəsini işğal edərək “İslam dövləti” qurduğunu elan edən İŞİD-ə qarşı savaşa ABŞ ordusu da qatılıb. Avqustun 8-dən başlayaraq ABŞ prezidenti Barak Obamanın qəfil göstərişinin ardınca Amerika hərbi aviasiyası İŞİD silahlılarının mövqelərini bombalamağa başlayıb.**

Artıq 3 gündür ki, ABŞ və İraq aviasiyası ölkənin şimalında kürd peşmərgələri və hökumət qüvvələri ilə döyüşən hökumət qüvvələrinə dəstək məqsədilə İŞİD mövqelərini bombalayır. İraq Milli Məlumat Mərkəzinin avqustun 10-da yaydığı məlumatda qeyd olunur ki, İraq hava qüvvələrinin Ninyeva və Şenqal ətrafında apardığı bombardmanlar nəticəsində İŞİD-dən 280 ölü və yaralı var.

Qeyd edək ki, iyun ayının əvvəllərində İraqın ikinci böyük şəhəri Mosulu tutan İŞİD dövlət yaratdığını bəyan edib və eləcə də bölgənin digər şəhərlərini təhdid etməyə başlayıb. Həmin vaxt əsas türkmənlərin yaşadığı Telafer, Tuz Xurmatı kimi şəhərlər ələ keçirilib, Samirə, Tiqrit şəhərləri uğrunda isə savaşlar olub. Ancaq sonradan daha da irəliləyən İŞİD qüvvələri İraqın şimalında yerləşən kürd muxtariyyətini təhdid etməyə başlayıb. Eyni zamanda İraqın şimal ərazilərində yaşayan xristianlar, assurilər, yezidi kürdləri də təhlükə altına düşüb. Son məlumatlara görə, İŞİD-dən qaçan minlərlə yezidi kürdü dağlara qaçıb və burda onların çoxu susuzluqdan, istidən dünyalarını dəyişiblər. Ələ keçənlər isə “kafir” adı altında İŞİD silahlıları tərəfindən qətlə yetirilib, qadınlar isə əsir götürülüb.

**ABŞ-ın məhz kürd muxtariyyətinə təhlükə yarandıqdan sonra hərəkətə keçməsi dünyada Vaşinqtona qarşı tənqidlərə səbəb olub.** Türkiyə hökuməti də ABŞ-ın addımının İraqda vəziyyəti daha da pisləşdirəcəyini bəyan edib. Amerika hökuməti isə İraqda İŞİD-in bombalanmasını ABŞ səfirliklərinin qorunması ilə əsaslandırıb. Çünki İŞİD qüvvələrinin kürd administrasiyasının yerləşdiyi Ərbildə Amerika konsulluğu fəaliyyət göstərir. Öz növbəsində Obama İŞİD-ə qarşı müharibənin “bir az zaman alacağını” bildirib. O, İraqda “xilafət” qurulmasına imkan verməyəcəklərini söyləyib.

**Qeyd edək ki, Amerikanın yalnız indiki mərhələdə İŞİD-ə qarşı hərəkətə keçməsi tənqidlərə səbəb olmaqla yanaşı, bir sıra suallar doğurub.** Məsələn, nədən Vaşinqton məhz bu günü gözlədi? Ortada kürd amili varmı? Yoxsa Vaşinqton məhz Papanın çağırışından sonra xristianları qorumaq üçünmü hərəkətə keçib?

**Ankara Universitetinin doktorantı, təhlilçi Orxan Qafarlı** deyir ki, ABŞ-ın İŞİD-ə qarşı hərbi əməliyyatları başlatmasının bir sıra səbəbləri var. Bunlardan birincisi İŞİD-in İraqın şimalında kürd bölgəsinə irəliləməsi, eyni zamanda neft-qaz regionunu ələ keçirməsi təhlükəsi və su anbarının partladılması təhlükəsi idi: “Neft və qaz yataqları ilə yanaşı, İraqın ən böyük su anbarı da terrorçu qrupun əlinə keçib. Əgər İŞİD bu anbarı partlatmağa qərar versə İraq ərazisinin böyük hissəsi su altında qala bilər. Digər tərəfdən nəzərə almaq lazımdır ki, İraq kürdləri İsraildən sonra bölgədə ən çox güvəndiyi müttəfiqidir. Şimali İraqda kürdlərin bu vəziyyətə düşməsi Amerikanın maraqlarına ziddir. Bundan başqa, bu günlərdə məlum oldu ki, 500-ə yaxın yezidi kürdü İŞİD tərəfindən kütləvi şəkildə qətlə yetirilib, yüzlərlə yezidi qadın isə cariyə olaraq götürülüb. Mosuldakı xristian ərəblərin kütləvi şəkildə qətlə yetirilməsi təhlükəsi var”.

**O.Qafarlı deyir ki, ABŞ belə bir təhlükədən dolayı müttəfiqi olan Şimali İraq kürdlərinə kömək etməkdə maraqlı olub:** “Ancaq yardım müəyyən qədər gecikdirildi, Vaşinqton bununla eyni zamanda mesaj verdi, kürdlərə göstərmək istədi ki, Vaşinqton xaricində heç bir region ölkəsi onların təhlükəsizliyinin qarantı ola bilməz. Eyni zamanda Türkiyənin İraq kürdlərinə qarant durmaq istəyinin də əsassız olduğunu nümayiş etdirdilər. Bu əməliyyatı şərtləndirən daha bir məqam isə iqtisadi səbəblər, daha doğrusu neft qiymətlərinin bahalaşması idi. Amerikanın ”Chevron" və “Exxon Mobil” kimi şirkətlərin qiymətli kağızları sürətlə ucuzlaşırdı. Bunun səbəbi isə İŞİD-in neft yataqlarını ələ keçirməsidir. “Exxon Mobil” mühafizəkar elitaya yaxın şirkətdir. Hərbi əməliyyatlarda bu şirkətin də payı olmamış deyil".

**O.Qafarlı deyir ki, ABŞ İŞİD problemini yaxın zamanlarda həll etmək fikrində deyil. Ekspertin fikrincə, daha qabarıq hiss olunan məqamlar var:** “Diqqət etsəniz, Pentaqon çox məhdud miqyasda hərbi əməliyyatlar keçirir. 3 ədəd F18 (gözə görünməz) qırıcı təyyarə hərbi əməliyyatlarda iştirak edir. Amerikada anlayırlar ki, İŞİD bir terror təşkilatıdır, onun daha çox quruda savaşmaq üçün gücü var. Nizami ordusu yoxdur. Mənə görə, ABŞ İŞİD-ə ”qırmızı xətti keçmə" siqnalı verir. Yəni “bizim müttəfiqlərin üzərinə gedərsən, bizi qarşında görəcəksən”. Görünən odur ki, ABŞ və AB-dəki müəyyən dairələr Birinci Dünya müharibəsindən sonra formalaşmış sərhədləri dəyişmək istəyirlər. Bu güclər üçün İŞİD bir vasitədir. Bu sərhədlər dəyişdikdən sonra ABŞ İŞİD-i qısa zamanda məhv edəcək. Yaxın Şərq o vəziyyətə gətiriləcək ki, dövlətlər ABŞ-ı özləri dəvət edəcəklər. Ağ ev bunu gözləyir".

❑ **KƏNAN**

**"Erməni diversantın Azərbaycanda ölməsindən ermənilər təbliğatı planda geniş şəkildə istifadə etməyə başlayıblar. Onun ölümü ilə əlaqədar Azərbaycan xalqının xasiyyəti, mentaliteti haqda şantaj xarakterli sözləri təkrar edirlər. Mənə belə gəlir ki, onunla bu cür davranılmamalı idi. Ermənilər içki düşkünü, xəstə, yarımcan adamı öyrədib göndərmişdilər. Xüsusi geyimli şəxslərin simasında onun general-leytenant Rövşən Əkbərovun qəbuluna gətirmək məntiqsiz idi".**



# Erməni diversantın ölümü Azərbaycanın əleyhinə işləyə bilərmi?

Bu sözləri "Yeni Müsavat"a **politoloq Qabil Hüseynli** Tovuzda tutulan erməni diversant Karen Petrosyanın qəfil ölümü ilə bağlı danışarkən dedi. Q.Hüseynlinin sözlərinə görə, Petrosyan həyəcan içərisindəydi və ona siyasi xarakterli sualların verilməsi mənasız idi:

"Özü də nə rusca, nə azərbaycanca bilirdi. Çox təəssüflər olsun ki, ermənilər bu hadisədən beynəlxalq təbliğatda istifadə edirlər, dünya sosial şəbəkələrinə çıxarırlar. Ermənilərin həmin adamı diversiya məqsədi ilə göndərməsinə inanıram.

Bundan qabaq səfeh qocanı göndərmişdilər. Qəsdən silahsız səfehləri üstümüzə göndərirlər. Onların da çoxu alkoqolik olurlar. Kəlbəcərdə bir əsirimizin öldürülməsindən sonra ermənilərin əleyhinə dünyada iş gedirdi. Tovuzda tutulan diversantın ölümü isə o işi dayandırdı. Sanki hazırlanmış bir aksiya idi".

***

**Siyasi şərhçi hesab edir ki, ermənilərin bu aksiyada məqsədlərini başa düşüb, onları ifşa edəcək tərzdə davranmadıq:** "Tovuzda kənd camaatı daha müdrik hərəkət edirdi, ona qabağına çay qoyurlar, suallar verirdilər.

Bu adam da yerli camaatın mühitində özünü daha rahat hiss edirdi. Amma hərbçilər elə davranır ki, sanki bir erməni batalyonu, Ermənistan Müdafiə Nazirliyindən kimisə tutublar. Bu faktı çəkib sosial şəbəkələrə yaymağın mənasını başa düşə bilmirəm. Həmin vəziyyətdə kəlbəcərli Dilqəm Əsgərovu da erməni generalın yanına aparmışdılar.



**Qabil Hüseynli:**
"Ermənilər bu hadisədən beynəlxalq təbliğatda istifadə edirlər"



**Azər Rəşidoğlu:**
"General anlaya bilməyib ki, bütün bunlar bir tələ ola bilər"

Amma biz o generalın üzünü görmürük, suallarını eşitmirik. Rövşən Əkbərov isə soruşur ki, niyə müharibə edirsiniz, nə üçün camaatı sakit yaşamağa qoymursunuz. Bu bədbəxt bu suallara cavabı haradan bilsin? Bir alkoqolikdir, həyəcan içindədir. Yəni, ermənilər tərəfindən ustalıqla qurulmuş tələ idi. Onlar bu hadisədən xal götürə biləcəklər, artıq dünya sosial şəbəkələrində yayıblar".

**Siyasi ekspert deyir ki, söylədikləri heç də erməni xalqının mədəni, humanist olduğu anlamını vermir:** "Onlar Xocalıda uşaqlarımızı süngüyə keçiriblər, qocaları, cavanları vəhşiliklə öldürüblər. Amma indi qolu çırmanmış hərbçilərin əllərində avtomatla onun qollarını burub, başını tutub Rövşən Əkbərovun qəbuluna gətirmək başa düşülən deyildi".

Q.Hüseynli erməni diversantın ölümündən sonra Kəlbəcərdəki girovlarımızın qaytarılması perspektivinin çətinləşdiyini düşünür".

***

**Siyasi icmalçı Azər Rəşidoğlunun fikrincə, informasiya savaşını ağıllı adamlar aparmalıdırlar:** "Erməni əsirin istər saxlanılması, istərsə də telekanallar qarşısında dindirilməsi hamıda bir çox suallar yaratdı. Əvvəla, cavab verilməlidir ki, bu adam Azərbaycan ərazisinə necə keçə bilib?

İkincisi, hansı səbəbə görə onu hərbçilər yox, Tovuzun Ağbulaq kənd sakini tutub, zərərsizləşdirib? Bu suallar açıq qalıb. Eyni zamanda erməni əsir saxlanarkən ilk video görüntüdə mülki geyimdədir, sonra hərbçi geyimində olur. Bu detalı kim və hansı səbəbə nəzərə almadı? Üstəlik, Rövşən Əkbərovun kameralar qarşısında özünü bu şəkildə aparması ölkəmizin beynəlxalq imicinə ağır zərbə vuracaq".

**A.Rəşidoğlu deyir ki, erməni əsir daim həkim müayinəsindən keçməli idi:** "Ən azı belə bir şübhə var idi ki, o ölümcül xəstədir və ermənilər bilərəkdən onu Azərbaycana keçiriblər. Yəni, bu məsələnin bir informasiya savaşı olduğunu nəzərə almalı idilər. Rövşən Əkbərova isə görünür reklam olunmaq lazım idi. Onun informasiya savaşı barədə məlumatı ya yoxdur, ya da general anlaya bilməyib ki, bütün bunlar bir tələ ola bilər".

Yada salaq ki, avqustun 7-də Ermənistan-Azərbaycan sərhədinin Tovuz rayon Ağbulaq kəndi ərazisində Ermənistan vətəndaşı saxlanılmışdı.

**Avqustun 8-də səhər saatlarında isə K.Petrosyan qəflətən naməlum səbəbdən dünyasını dəyişib. İlkin ehtimala görə K.Petrosyanın ölümünə kəskin ürək-ağciyər çatışmazlığı, kəskin miokardial infarkt səbəb olub.**

❑ **Emil SALAMOĞLU**

# Müxalifət son həbslərlə bağlı toplaşır

## KXCP-nin qərargahında müzakirə keçiriləcək; həbsdəkilər üçün müdafiə komitəsi də yaradılacaq: "İndi bizim növbəmizdir"...

**Son həbs olunan hüquq müdafiəçilərinin müdafiəsini ölkə müxalifəti öz üzərinə götürür. Bununla bağlı avqustun 11-də, saat 16.00-da KXCP-nin qərargahında tədbir keçiriləcək. Tədbirlə bağlı təşəbbüs Müsavat başqanı İsa Qəmbərdən gəlib. O, sosial şəbəkədə hüquq müdafiəçisi İntiqam Əliyevin həbsi barədə yazdıqdan sonra hüquq müdafiəçilərinin müdafiəsi məsələsi bir daha qabardılıb.**

"İntiqam Əliyev Azərbaycanımızın ən ləyaqətli insanlarından biridir. Hələ gənc yaşlarında 1993-1995-ci illərdə mənim vəkilm olub, Heydər Əliyev-Surət Hüseynov tandeminin ilk repressiya dalğasında məni və digər siyasi məhbusları yüksək cəsarət və yüksək peşəkarlıqla müdafiə edib. İntiqam bəy bu gün də mənim vəkilimdir, AİHM-də mənim və seçki hüququ pozulmuş onlarla başqa insanın haqlarımızı qoruyur.

İndi bizim onun haqlarını qorumaq növbəmizdir. Əgər İntiqam bəyin hüquqlarını müdafiə komitəsi yaradılacaqsa, məni də unutmayın. Bu məqam digər fədakar insanlarımıza da aiddir: Leyla xanım və Arif Yunus, Rəsul Cəfərov, Emin Hüseynov... Bəlkə də ümumi bir müdafiə komitəsi yaratmaq daha düzgün olar?",- deyə İ.Qəmbər "facebook"da yazıb.

**Bundan sonra isə həbs edilən hüquq müdafiəçilərinin müdafiə komitəsi yaratmaq barədə müzakirələrin aparılması qərara alınıb. KXCP sədri Mirmahmud Mirəlioğlu məsələ ilə bağlı Musavat.com-a bildirib ki, son həbslər artıq cəmiyyətin səbrini daşdırıb və ciddi müzakirələrin aparılması zəruridir:** "Təbii ki, son həbs olunanlar bizim artıq cəmiyyətimizdə bugünkü vəziyyətimizin yaxşı olmadığını göstərir və səbrimizi daşdırıb. Xüsusilə İntiqam Əliyevin həbsi cəmiyyəti sarsıdıb. İnsanların haqqını və hüququnu qoruyanların demək olar ki, hamısı təhdid altındadır. Aparıcı insanların, hər kəsin müdafiəsinə qalxan insanlar özləri təqibə məruz qalır və həbs olunurlar. Bu hallara qarşı birgə mübarizə aparılmalıdır. İsa bəyin də bununla bağlı bir fikri vardı. Biz məsləhətləşdik ki, həbs edilən hüquq müdafiəçilərini tək-tək yox, bir yerdə müdafiə edək. Bunun üçün baş verənləri müzakirə etmək və müdafiə etmək üçün komitə yaratmaq lazımdır. Onlar bizim hüquqlarımızı təkcə Azərbaycan daxilində yox, geniş sferada müdafiə edən hüquqşünaslardır".



Mirmahmud Mirəlioğlu

**M.Mirəlioğlu son baş verən həbsləri pisləyib və bu həbslərin davamlı olacağını istisna etməyib:** "30-cu illərdə məşhur "troyka" vardı, indi o, başqa formadadır. Respublika Prokurorluğu, MTN və Vergilər Nazirliyi-indi də bu "troyka" meydana çıxıb. Baş verənlərə qiymət vermək və məsləhətləşmələr aparmaq lazımdır. Həbs edilənləri ciddi şəkildə müdafiə etmək lazımdır. Biz boynumuza düşəni etməliyik. Bu gün ölkədə hər kəsin haqqı, hüququ pozulur. Azərbaycan böyük bir həbsxanaya çevrilməkdədir. Addımbaşı hər birimizin hüququ pozulur. Həbs edilən hüquq müdafiəçilərini müdafiə etməklə nəyə nail olmağımızı zaman göstərəcək. Biz insanlıq borcumuzu, vətəndaşlıq vəzifəmizi yerinə yetiririk və ümid edirəm ki, bunu bacaracağıq".

❑ **Röya RƏFİYEVA**

# Sən niyə beləsən, gözəlim dünya?!



**Hüseynbala SƏLİMOV**

**Özüm də təəccüb qaldım! Türkiyə kanallarından birində Nazim Hikmət haqqında elə bir gözəl veriliş verdilər ki, vaxtın necə keçməsini duymadım. Bu dünyada həqiqətən də qəribə işlər...**

Düzdür, başa düşürəm və həm də yaxşı bilirəm ki, indi əvvəlki dövrlər deyil. Nazim Hikmət artıq türk poeziyasının zirvələrindən biri hesab olunur. Amma Türkiyədə hələ də Nazimə onun kommunist keçmişini tam bağışlamayıblar, bununla bağlı əvvəlki kimi olmasa da, müəyyən tərəddüdlər indi də qalır..

Amma veriliş ayrı aləm idi. Mən Nazimin həyat xronologiyasını çox yaxşı və bəlkə də mükəmməl bilirəm. Amma buna baxmayaraq yenə də ağlıma gəldi ki, bəlkə nəsə diqqətimdən yayınıb, onun həyatı ilə bağlı hansısa əlamətdar hadisəni unutmuşam?..

Nə demək olar Nazim Hikmət haqqında? Mən bilmirəm Türkiyə kommunist partiyasının hansı uğurları olub. Amma bu partiyanı və yaxud da siyasi dərnəyi ən azı ona görə anmaq lazımdır ki, onun sıralarında Nazim də olub və bu partiya müəyyən mənada Nazimin həyatını xilas edib...

Bizim ölkəmizin də keçmişi kommunizmlə bağlı olub. Əvvəllər mən buna görə bir vətəndaş kimi çox acıqlı idim, bütün solçu cərəyanlarda Rusiya imperiyasının izlərini görürdüm. Amma sonradan bu hiss çəkildi. Buna həm yaşa dolmağım, həm də bəzi prosesləri daha yaxşı anlamağım kömək etdi...

Başa düşdüm və razılaşdım ki, müstəqil Azərbaycanda solçular da olmalıdır. Bu adamlar hətta siyasi profilaktika baxımından faydalıdırlar. ABŞ prezidenti D.Eyzenhauerin bir fikri vardı ki, solçulara qarşı mübarizə apara-apara biz ölkəni sağların diktaturasına çevirə bilmərik...

İndi, hətta QHT-lərin də təqib olunduğu bir vaxtda, başa düşürəm ki, mənim ölkəmdə sağ-sol haqqında danışmaq Ayda nəyin-pomidorun, yoxsa badımcanın daha yaxşı yetişməsi haqda mübahisə etmək kimidir. Bəli, mənim ölkəmin sağı da, solu da eyni aqibət yaşayır, hamısı təpki və təzyiq altındadır... Təkcə Nazim Hikmətlər çatışmır... Yox, o mənada yox ki, burada daha istedadlı adam qalmayıb. Qalıb. Amma onlar "ötəri materiya"larla beyinlərini məşğul etmək istəmirlər...

Onlar üçün siyasi təqiblər, ictimaiyyət fəallarının başına gələnlər "adi", "ötəri" məsələlərdir. Onlar beyinlərini daha "ciddi" işlərlə məşğul etmək istəyirlər. Bu mənada bizim bəxtimiz gətirməyib, bizim ədəbiyyatın dili kimi elə sosial missiyası da həmişə qəliz olub...

Amma Nazim belə deyildi. Demirəm ki, o, yeganə kommunist ölkəsində gördüklərinin hamısını təqdir edirdi. Yəqin ki, belə deyildi. Belə olsaydı bunu təəccüblə qarşılamaq olardı və Nazim də heç əsl kommunist olmazdı...

Mən bilirdim ki, əcnəbi kommunistlər sovet reallıqlarına çox tənqidi yanaşırdılar. Bir Luis Korvalan vardı. Çili kommunist partiyasının lideri. Bəli, sovetlər min bir əziyyət şəkib onu Mockvaya gətirdilər. Amma yaşaya bilmədi. Krıma göndərdilər. Orada da yaşaya bilmədi. Çıxıb Almaniya Demokratik Respublikasına getdi. Amma sonradan öyrəndim ki, orada da yaşaya bilməyib. Nəhayət, bir neçə il bundan əvvəl təsadüfən öyrəndim ki, bu adam Çiliyə qayıdıb və orada öz xatirələrini yazmaqla məşğuldur...

Bəli, dünya belə dünyadır. Nazim nahaq yerə deməyib ki, gözəlim dünya! Gəl, indi onun adi bir işindən baş aç görüm, necə açırsan!..

20-ci əsr əslində solların əsri idi. Nə qədər intellektual, nə qədər böyük insan sola üz tutmuşdu! Amma bir sovet hakimiyyəti sosializmə karikatura yaratmaqla hər şeyin üstündən xətt çəkdi...

İndi yalnız sosial-demokratlar qalıb. Onların işi yaxşı gedir. Ona görə ki, əsl sosializm haqqında düzgün təsəvvürə malikdirlər, ona görə ki, daha realist düşünürlər...

Radikal solçular isə ya dəyişərək onlara qoşulublar, ya da ki, terroristlərə çevriliblər. Nə etmək olar? Amma dünyada sol siyasi təmayül tamam iflasa uğramayıb. Bunun özünü də qənaətbəxş hesab etmək olar...

Amma bir məsələ var. Əgər ac uşaq görəndə ürəyin sancmırsa, xəstə, kimsəsiz qocanın magazadan əli boş qaytarıldığını görəndə dərhal əlini cibinə salmırsansa, istər sağçı ol, istərsə də solçu, sənin, sadəcə, ürəyin yoxdur, sən o insanlardansan ki, siyasətə təkcə mənfəət, karyera üçün qoşulur...

Yadınıza gəlirmi Nazimin misraları? "Sən yanmasan, mən yanmasam..." Elə həqiqətən də, ürəklər məşəl olmasa, qaranlıqlar necə çəkilər?..



İntiqam Əliyev

# İntiqam Əliyev öz həbsi barədə nə düşünür - həbsxanadan açıqlama

## Hüquqşünasın vəkili onunla görüşüb və bəyanat yayıb

**Xəbər verildiyi kimi, avqustun 8-də Hüquq Maarifçiliyi Cəmiyyətinin rəhbəri İntiqam Əliyev həbs edilib. Həmin gün onun evi və ofisində axtarış aparılıb. Axşam saatlarında Nəsimi Rayon Məhkəməsinin qərarı ilə hüquq müdafiəçisinə qarşı Cinayət Məcəlləsinin 213.1-ci (vergidən yayınma), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) və 192.2-ci (qanunsuz sahibkarlıq) maddələri ilə ittiham elan olunub. O, hazırda 1 saylı Bakı İstintaq Təcridxanasında saxlanılır.**

Avqustun 9-da təcridxanada İntiqam Əliyevlə görüşən vəkili Anar Qasımlı bəyanat yayıb. Bəyanatda deyilir: "Hüquq müdafiəçisi İntiqam Əliyev ona qarşı irəli sürülmüş ittihamları qəbul etmir, hesab edir ki, həmin ittihamların arxasında hüquqi motivlər deyil, siyasi motivlər dayanır. Onun həbsi hüquq müdafiəçisi kimi fəaliyyətinə görə, onu susdurmaq məqsədilə siyasi sifariş əsasında həyata keçirilmişdir. Belə ki, İntiqam Əliyev Azərbaycanda insan haqlarının pozuntusu ilə bağlı Avropa İnsan Hüquqları Məhkəməsinə çoxsaylı şikayətlər göndərmişdir. O, 2010-cu il parlament seçkiləri ilə bağlı Avropa Məhkəməsinə 40-dan çox şikayət göndərmiş, hazırda həmin şikayətlər üzrə hökumətlə kommunikasiya gedir. İntiqam Əliyevin həbsi həmin seçki işləri üzrə Azərbaycana qarşı Avropa Məhkəməsi tərəfindən qərar çıxarılmasının qarşısını almağa xidmət edir. Təsadüfi deyil ki, rəhbəri olduğu Hüquq Maarifçiliyi Cəmiyyətinin ofisində axtarış aparılarkən həmin seçkinin işlərinə dair bütün sənədlər (vəkil dosyesi) istintaq orqanı tərəfindən qanunsuz olaraq və ittihama heç bir əlaqəsi olmadığı halda götürülmüşdür. Bu isə, o deməkdir ki, İntiqam Əliyevi fiziki olaraq cəmiyyətdən təcrid etməklə, onun Avropa Məhkəməsi qarşısında seçki işlərinin kommunikasiyasını davam etdirməsinə maneçilik törədilməsi ilə kifayətlənməyib, seçki işlərinin dosyeləri götürülməklə həmin işlərin kommunikasiyasının Hüquq Maarifçiliyi Cəmiyyətinin başqa əməkdaşları və ya şikayətçilərin özləri tərəfindən davam etdirilməsinin qarşısı alınıbdır. Avropa Məhkəməsinin prosedur qaydaları baxımından bu halda seçki işlərini şikayətçinin işin nəticəsinə marağının itməsinə görə siyahıdan çıxarılması mümkündür. Nəzərə almaq lazımdır ki, İntiqam Əliyev tərəfindən Avropa Məhkəməsinə təkcə seçki işləri göndərilməyib, eyni zamanda mülkiyyət hüququnun pozuntusuna, ifadə azadlığı və sərbəst toplaşmaq hüququnun pozuntusu və digər strateji əhəmiyyətli işlərlə bağlı da çoxsaylı şikayətlər göndərilib. Həmin şikayətlərlə bağlı dosyelər də istintaq orqanı tərəfindən qanunsuz olaraq götürülüb. Bundan əlavə, nəzərə almaq lazımdır ki, indiyədək Avropa Məhkəməsi tərəfindən Azərbaycana qarşı çıxarılan qərarların əksəriyyəti İntiqam Əliyevin vəkillik etdiyi işlər üzrə, yəni onun tərəfindən göndərilmiş şikayətlər əsasında çıxarılmışdır. Bütün bunlar onu deməyə əsas verir ki, İntiqam Əliyevin həbsinin başlıca səbəbi onun tərəfindən Avropa Məhkəməsinə göndərilmiş şikayətlər üzrə, xüsusən də 2010-cu il Parlament seçkilərinin nəticələrinə dair göndərilmiş şikayətlər üzrə Azərbaycana qarşı qərarlar çıxmasının qarşısını almaqdır. Başqa sözlə, hüquq müdafiəçisi İntiqam Əliyevin Avropa Məhkəməsində işlərin aparılmasına yönəlik vəkillik fəaliyyətidir. İntiqam Əliyevin həbsinin başqa bir səbəbi isə, onun hüquq müdafiəçisi kimi Avropa Şurası Parlament Assambleyasının ötən ay keçirilən iclasında etdiyi çıxışdır. Həmin çıxışında o, Azərbaycan hakimiyyətinin insan haqları ilə bağlı siyasətini sərt tənqid etmiş, ölkədə siyasi məhbuslar problemindən, müstəqil qeyri-hökumət təşkilatlarına basqılardan, hakimiyyətin tənqidçilərinin saxta ittihamlarla şərlənib tutulmasından, ölkədə insan haqlarının acınacaqlı durumundan, vətəndaşların mülkiyyət hüquqlarının kütləvi pozuntusundan və s. söhbət açmış, hakimiyyəti sərt şəkildə tənqid etmişdir. Bu mənada onun həbsi həm də ifadə azadlığının pozuntusudur. Hüquq müdafiəçisi İntiqam Əliyev hesab edir ki, onun həbsi həm də ölkədə müstəqil QHT-lərin susdurulması və tamamilə sıradan çıxarılması istiqamətində görülən işlərin tərkib hissəsidir. Təsadüfi deyil ki, son bir neçə ay ərzində xeyli sayda hüquq müdafiəçisi analoji ittihamlarla şərlənərək tutulub, müstəqil QHT-lərin və onların rəhbərlərinin, o cümlədən "Hüquq Maarifçiliyi Cəmiyyəti"nin və şəxsən İntiqam Əliyevin bank hesablarına həbslər qoyulub, qrant layihələrinin qeydiyyatına süni maneələr yaradılıb. Bu mənada onun həbsi həm də birləşmək hüququnun pozuntusudur".

❑ **Cavanşir ABBASLI**

# Xədicə İsmayıl Aslan İsmayılovu təhqir etdi

## "İntiqam Əliyev xahiş edib, Aslan bəyə çatdırım ki, o, alçaqdır"; Aslan İsmayılov təmkinli davrandı: "Təəssüf edirəm..."

**Dünən gecə araşdırmaçı jurnalist Xədicə İsmayıl özünün Facebook səhifəsində skandal status paylaşıb. Tanınmış hüquqşünas Aslan İsmayılovu hədəfə alan həmin status belədir: "Hökumətin yalandan iş tikdiyi adamlarla bağlı böhtan kampaniyasına qoşulmaq alçaqlıqdır. Aslan İsmayılovdan bu qədərini gözləməzdim. Görünür, gözləntilərimizi ümumiyyətlə aşağı tutmalıyıq".**

Daha sonra onun səhifəsində bu mövzuda müzakirələr başlayıb. Müzakirələrin gedişində X. İsmayıl bir az da irəli gedərək, həbs olunan hüquqşünas İntiqam Əliyevin adından Aslan İsmayılı "alçaq" ifadəsi ilə təhqir edib: "Taleh bəy, şəklini profilinizə qoyduğunuz adam (oradakı şəkil İntiqam Əliyevə aiddir - musavat.com) xahiş edib, Aslan bəyə çatdırılsın ki, o alçaqdır. Bunu etmədim. Öz fikrimi yazdım. Aslan bəyin yəqin ki, xidmətləri olub. Bəzən qətiyyətli mövqe nümayiş etdirib. Amma yaxşı adam hərdən yaxşılıq edən adam deyil, pislik etməyəndir"...

**X.İsmayıl İntiqam Əliyevin bu sifarişi hansı şəraitdə, kimin vasitəsi ilə və nə zaman etdiyini açıqlamayıb. Yalnız Aslan İsmayılovun yenə də Facebookda yazdığı bir statusu paylaşıb. İndi oxuyacağınız hissəni qızartmasından aydın olur ki, jurnalistin hüquqşünası təhqir etməsinin əsas səbəbi məhz bu hissədir. Aslan İsmayılovun həmin fikirlərini təqdim edirik:**

"...Bu məsələdə məni narahat edən bir fikri də Sizlərlə bölüşmək istəyirəm. Bu günə qədər biz artıq iş-işdən keçəndən sonra, artıq həbs edilmə ərəfəsində bu hadisələrdən xəbər tuturuq. Niyə birinci gündən başlayan yoxlamalar barədə həmin QHT rəhbərləri cəmiyyəti xəbərdar etmirlər, aldıqları qrantlar, ödədikləri vergilər, gördükləri işlər barədə cəmiyyəti məlumatlandırmırlar? Hesab edirəm ki, deyilənlər olsaydı cəmiyyət də baş verənlərə belə susqun münasibət bildirməzdi. Bir çoxları fikirləşir ki, qrant alanların "günahı olmasa" susmazdılar.



Xədicə İsmayıl



Aslan İsmayılov

Öz növbəmdə bildirirəm ki, dövlətçilik məsələsində ən əzizlərimə də güzəştə getmərəm. Bununla belə heç vaxt qrant almasam da, qrant alıb maarifçiliklə, insan haqlarının qorunması ilə məşğul olanlar cəmiyyət üçün çox faydalı işlər görürlər və cəmiyyət tərəfindən də müdafiə olunmalıdırlar.

**P.S.** Mənə qarşı olan basqıları sevinclə qarşılayan, ancaq qısqanclıqdan haqqımda "o hakimiyyətə işləyir", "ancaq pulluları müdafiə edir" və digər böhtanları yayan intiqam əliyevlərə, ənnağı hacıbəylilərə və onlara züy tutanlara deyirəm ki, mənə qarşı olan hər qanunsuzluğu cəmiyyətə bildirmişəm, bütün varlığımla mübarizə aparmışam və sizlərin də haqları uğrunda mübarizə aparmağa həmişə kimi bu gün də hazıram". Qeyd edək ki, A. İsmayılov bu statusu 6 avqust tarixində, İntiqam Əliyevin həbsindən əvvəl yazıb.

**Xədicə İsmayılın onu təhqir etməsinə isə hüquqşünas təmkinlə yanaşıb. Ünvanına söylənənlərə iki statusla cavab verib. Birinci status belədir:** "Yalnız Azərbaycanda: əgər savadlı və ədalətlisənsə hakimiyyətin hədəfindəsən, əgər savadlı və ədalətli olmaqla yanaşı, həm də müstəqilsənsə hamının hədəfindəsən".

**Onun bilavasitə Xədicə İsmayıla cavab xarakterli statusu isə budur:** "Son dövrlər baş verən hadisələr hamımız üçün tək üzücü yox, həm də çox təhlükəlidir. Rəsul Cəfərov və İntiqam Əliyevin həbsi, Emin Hüseynov və digərləri haqqındakı təqiblər isə artıq bütün əndazələrin keçilməsidir.

Azərbaycanda yaşadığım 25 ili həyatımı heç kimdən asılı, heç kimin diqtəsi olmadan, heç bir təşkilatda təmsil olunmadan bildiyim kimi yaşamışam və bundan sonra da o cür davam edəcəm! Hakimiyyətin qanunsuzluqlarına, özbaşnalıqlarına, cəmiyyətdə baş verən murdarlıqlara qarşı mübarizəmi heç kimdən və heç nədən asılı olmayaraq davam etdirəcəm. Atdığım heç bir addımımdan da təəssüflənmirəm. Sadəcə olaraq ünvanıma səslənən təşkil olunmuş bu tipli böhtanlara təəssüflənirəm".

Yəqin ki, tərəflər arasında facebook atışması davam edəcək. Diqqətə layiq məqamlar, ictimai əhəmiyyətli detallar olsa, oxucularımızı məlumatlandıracağıq.

❑ **Musavat.com**

# 50 yaşlı cavan - Rəşad Məcid

**Deseydilər ki, Rəşad Məcidin 70 yaşı olur, yaxud tamam əksinə, sabah 21 yaşa keçir, "21 yaşımla söhbət" şerini elə dünən yazıb, inanardım, mənə qəribə gəlməzdi.**

Rəşadın 50 yaşı məndə ikili duyğu yaradır. Bir tərəfdə "50 yaşı hələ indi olur?" deyə qəribə sual, o biri yanda "nə tez 50 yaşı oldu?!" təəccübü var. Adamın inanmağı gəlmir.

70 yaş ona görə deyirəm ki, Rəşad həmişə yaşından böyük görünüb. Başqalarını bilmirəm, mənə belə görünüb. Ağdamda yay axşamları hərdən evin taxtapuşuna çıxıb, isti damda uzanıb göyə, günəşin batmasına, Xıdırlı dağlarına, qonşuların həyətinə, bir də yola baxmağım vardı. O küçədən keçənlərin arasında məhlənin ən "qoca uğaşı" da olurdu. Onu böyük göstərən bəlkə də yuxarı sinifləri Bakıda, təmayül məktəbində oxumağa getməsiydi. O yaşda uzaq şəhərə oxumağa getmək, bizə əsgərliyə getmək kimi gəlirdi. Hələ hamıdan qabaq maşın sürməyi də onu gözümüzdə əməlli-başlı kişiləşdirmişdi.

Çox vaxt Bakıdan yaşca xeyli böyüklərlə gəlirdi. Mən bu adamları televizordan tanıyırdım. Onlar Rəşadgildə qalardı, Rəşad onları Şuşaya apardı. O vaxt televizorda gördüyün adama küçədə rastlamaq qeyri-adi bir şey idi.

Mehman Cavadoğlunu ilk dəfə onlarda görüb elə bilmişdim ki, Ramiz Rövşəndi. Amma Sabir Rüstəmxanlını, Nüsrət Kəsəmənlini elə özlərinə oxşatmışdım. Ta



Aqil Abbası demirəm, onlar elə mən tanıyandan bir yerdəydilər.

Sonra Bakıda da onu özündən yaşlı adamlarla gördüm. "Azneft" çayxanasına yığışan ölkənin tanınmış ədəbiyyat, mədəniyyət, elm adamlarını deyirəm. Məsələn, Aydın Məmmədovu deyirəm, o Aydın Məmmədov ki, dövrünün elmi-ədəbi elitası onu brend kimi qəbul eləmişdi. O da 25 yaşlı Rəşadı təzəcə yaranan Tərcümə Mərkəzində özünə müavin götürmüşdü.

Kimlərlə oturmağından asılı olmayaraq; çay stolunda, yemək məclisində həmişə hesabı Rəşadın verdiyini gördüm. Hamı onu "üstünə diləyə gediləcək" adam kimi tanıdı. Tanıyan güvənli biri təki onunla dost olmaq istədi.

Mənim üçün Rəşad, bax, hələ o vaxt 50 yaşındaydı.

***

21 yaş ona görə deyirəm ki, Rəşadı tanıyıram! Onu ən azından mənim qədər tanıyan bilir ki, illərin dəyişdiyi Rəşadın o üzündəki Rəşad həmişə "yaşının yaşıl çağı"nda, elə 21 yaşındadı.

Rəşad ilk baxışda kimsəə kobud da görünər. Yekəxana, eqoist də. Bir dəfə bir toyda Brilyant Dadaşova çıxış edib yerinə qayıdan Rəşada bu kontekstdə söz atmışdı. Amma o hardan biləydi ki, ona kobud görünən bu adamın içində kövrək, bir kəlmə sözdən yuxalan ürək döyünür. Tanımırdı, ona görə.

Bəlkə də içindəki həmişəcavan şairdi onu gənclərlə əhatələyən. "525-ci qəzet"in ilk sayında gənclərə çağırış eləməsi, sonrakı illərdə, onlarla, yüzlərlə gəncə yaradıcılıq meydanı verməsi, gənc yazarlarla iş üzrə Yazıçılar Birliyinə rəsmi işə qəbul edilməsi də elə ordan gəlir.

Küçədə əlindəki neft dolu butulkayla ehtiyatsız davranıb özünü yandıran bir uşağı o vaxtın ən bahalı "layka" plaşına büküb söndürməsini xatırlayıram. 1980-ci illərin bir yağışlı günündə onu plaşsız görüb təəccüblənəndə danışmışdı bu hadisəni.

Rəşadın nə qədər adamın həyatını dəyişməyinə şahidəm. Neçə adam ona görə ailə qurub, iş tapıb, sənətə gəlib, depressiyadan çıxıb, qanad açıb ruhlanıb, ilhamlanıb, sevgi dadıb.

Rəşad Məcidlə bölüşmədiyimiz çox fikirlər ola bilər, mübahisə mövzularımız az olmayıb, amma bu, heç vaxt dostluğumuza kölgə salacaq həddə çatmayıb.

Qardaşı olanlar qardaş qədrini nə qədər bilir, deyə bilmərəm. Amma olmayan adama elə gəlir ki, qardaşı olsaydı, ona ikiqat güc verərdi. Rəşaddan o qədər beləcə güc almışam, heç özü də duymayıb!

"Deyirlər dost dar gündə tanınar. Amma elə deyil, adamlar sənin pis günündə yox, şad günündə əsl simalarını göstərirlər. Dar gündə tanımadığın insanların belə sənə rəhmi gələr, əl tutar. Əsl dost insanın şad gününə qəlbən sevinəndi". Bu sözləri təzəcə bitirdiyim "Cholqala 1992" romanımın qəhrəmanı deyir.

Rəşad Məcid də belədi: insanlara tək dar gündə həmdərd olmur, onların şad gününə ürəkdən sevinməyi də bacarır. Mən onu belə tanıdım!

**Yubileyin mübarək, 50 yaşlı cavan!**

❑ **Vahid Qazi**

YENİ MÜSAVAT
N 200 (5909) 11 avqust 2014

**22 ildir ki, insanların qəlbində Qarabağ nisgili var. Xüsusən də, Qarabağda döyüşüb öz sağlamlıqlarını itirən insanların üzündə bir kədər, hüzn var. Onlar yalnız çevrilib keçmişə baxanda, qarabağlı günlərinə qayıdanda sifətlərində ani də olsa xoş bir təəssürat yaranır. Bu insanlar Qarabağ döyüşlərində öz sağlamlıqlarını itirsələr də, yenə də ümidlidirlər.**



# “Vətən üçün ölmək də lazımdır, öldürmək də”

## Qarabağ qazisi Məmmədhəsən Həsənov:

### “Qanla verilən torpaqlar, qanla alınmalıdır”





Ümidlidirlər ki, artıq zaman yetişib. Torpaqların qaytarılması vaxtı çatıb. İllərdir Qarabağ acısını ürəyində daşıyan, Qarabağda baş verən son hadisələrdən sonra daha da ümidlənən şəxslərdən biri də **“Mina Qurbanlarının sosial-iqtisadi problemlərinin həllinə kömək” İctimai Birliyinin sədri, Qarabağ qazisi, ikinci qrup əlil Məmmədhəsən Həsənovdur.** M.Həsənovla o illərə qayıtmaq, baş verənlərlə bağlı fikirlərini öyrənmək üçün onun yaşadığı ünvana, Dərnəgül qəsəbəsində yerləşən yataqxanaya yollandıq. Kiçik bir otağa ailəsi ilə sığışan Qarabağ qazisi ağır yaşayış şəraitinə və döyüşdə ayağını itirməsinə baxmayaraq, ümidlidir. M.Həsənov gözlərini uzaq bir nöqtəyə zilləyərək, fikirlərini bizimlə bölüşdü:

“Mən 1971-ci ildə Füzuli rayonunun Divanallar kəndində dünyaya gəlmişəm. Orta məktəbi bitirdikdən sonra Sovet ordusuna hərbi xidmətə yollandım. 1991-ci ildə hərbi xidmətimi başa vurub kəndimə qayıtdım. Mən qayıdanda artıq kənd mənim qoyub getdiyim kənd deyildi. İnsanların üzündə bir sıxıntı, kədər vardı. Artıq sərhəd kəndlərdə Qacar, Veysəlli və Divanallar istiqamətlərində döyüşlər gedirdi. Mən Sovet ordusundan qayıdanda evimizdə silah gördüm. Kənddə hər 5-6 nəfərə 1 silah verməşdilər və könüllü dəstələr yaradılmışdı. Bu silahlar təlim avtomatı idi. Axşam düşən kimi ermənilər kəndimizi atəşə tutdular. Biz isə onların cavabını ancaq təlim avtomatları ilə verə bilirdik. Çünki bizə bundan başqa silah verilməmişdi. Rus qoşunları da onların tərəfində dayanıb guya sakitçiliyi bərpa edirdilər. Mən hərbi xidmətdən gələndən bir neçə gün sonra kəndimiz Divanallar erməni-rus birləşmələri tərəfindən yandırıldı və 7 nəfəri girov götürüldü. Bu hadisədən sonra demək olar ki, hər yerdən, hətta Bakıdan Füzuli rayonuna könüllü dəstələr gəlirdi. Divanallar Füzulidə yandırılan ilk kənd oldu. Ruslar kənd sakinlərinə "siz niyə postda durursunuz, biz özümüz kəndi qoruyuruq" desələr də, artıq onlara heç kim inanmırdı və kənd camaatı hər axşam onlara verilən təlim avtomatı ilə postda dayanırdı. Füzulu rayonunda özünümüdafiə batalyonu yaradıldı. Könüllü batalyonların vasitəsi ilə sərhəd bölgələrində postlar möhkəmləndirildi. Yuxarı Veysəlli deyilən yer Xocalı alınan gün ermənilər tərəfindən işğal edildi. Daha sonra Cəmilli kəndi yandırıldı. Ancaq ermənilər Qacar kəndinə hücum edəndə bunun qarşısı alındı. Qacar kəndində Xəcəz dağı deyilən bir yer var. Ora Füzuli üçün çox əhəmiyyətli yer idi. Ermənilər oranı alıb Füzulini nəzarətdə saxlamaq istəyirdilər. Mən 4 sinif yoldaşımla birlikdə könüllü batalyona yazıldıq. Bu gün igidliyinə görə orden alan İslam Əliyev, Zakir Qasımov, Faiq Quliyev və mən hər axşam posta çıxırdıq. Ağsaqqallar bizə deyirdi ki, siz hələ posta çıxmayın, hərbi xidmətdən yeni qayıtmısınız, istirahət edin. Ancaq biz onların sözünə baxmayaraq, axşam olan kimi posta gedirdik. Hər axşam bir ağsaqqal postda dayanan gənclərin yanında səhərədək keşik çəkirdi. 1-2 həftədən sonra biz hərbi komissarlıqda könüllü qeydiyyata düşdük. Artıq öz adımıza silah götürdük və beləcə döyüşün ən qaynar nöqtəsində olduq. Sinif yoldaşlarım İslam Əliyev və Zakir Qasımov gözümün qabağında şəhid oldu. 1993-cü il aprelin 2-də Kəlbəcərin işğalı günü bizim kəndi və Qacarı aldılar. Elə həmin gündən də Füzulinin qara günləri başladı. Çünki əsas strateji yerlər tərəfindən götürülmüşdü".

**M.Həsənov minaya düşərək ayağını itirdiyi günü xatırlayarkən qəhərlənsə də, həmin günün ağırlığının artıq keçmişdə qaldığını və bu gün də səngərə gedib vuruşmağa hazır olduğunu deyir:** “1993-cü il martın 9-da dayımla birlikdə minaya düşdüm. Dayım Surxay Məhərrəmov elə oradaca şəhid oldu. Elxan İmanov və mən ağır yaralandım. Mən həmin vaxt özümdə olmamışam. Deyilənə görə hər kəsin başı şəhid olmuş dayıma və yaralı olan Elxana qarışıb. Onları aparanda Elxan deyib ki, Həsən qaldı. Mənə qısaca Həsən deyirlər. Mən minaya düşərək dağılmış maşının üstündə qalmışdım. Məni hərbi vertolyotla Bakıya gətirdilər, ayağımı itirdim. Çətin də olsa, o günlərin ağırlığını dəf edə bilirəm. Bu gün Qarabağ bizim şərəf, namus məsələmizdir. Qarabağda baş verənlərin bir cavabı var, bu da döyüşdür. Biz yenidən şəhidlər verdik. Allah onlara rəhmət eləsin. Biz cəsarət göstərib tezliklə torpaqlarımızı azad edərək şəhidlərimizin ruhunu şad etməliyik. Əsgər evinə zəng edib deyir ki, mən ölsəm məni şəhid bilin və ağlamayın. Bu sözlər cəsarətli ananın tərbiyəsindən övladına vermiş olduğu tərbiyədən irəli gəlir. Avqustun 1-dən döyüş xəbərləri gələn kimi elə bu yataqxanadan nə qədər gənc Ağdama, Tərtərə getmək üçün toplaşdı. Onların gözlərindəki cəsarət, yüksək əhval-ruhiyyə insanda ümidi, əzmkarlığı artırır və mən indiki gəncliklə qürur duyuram. İnsanların bu qədər yüksək vətənpərvərlik əhval-ruhiyyədə olması torpaqlarımızın tez bir zamanda azad olacağından xəbər verir. Xalq müharibəyə hazırdır. Beynəlxalq təşkilatlar nədənsə hər kəsin müdafiəçisi olsalar da, Qarabağın və 1 milyon qaçqının müdafiəçisi olmurlar. Amma o təşkilatlar da bu gün Azərbaycan gənclərinin necə vətənpərvər ruhda olduğunu gördü. Mən özüm Şərq tərəfdaşlığı proqramında milli platformanın üzvüyəm. Xarici ölkələrdə keçirilən tədbirlərə səfər edəndə ermənilərin çıxışlarından, əhval-ruhiyyələrindən vəziyyətlərinin bərbad olduğu açıqca görünür. Mən sonda bir döyüşçü kimi deyirəm ki, qanla verilən torpaq qanla alınmalıdır. Vətən üçün ölmək də lazımdır, öldürmək də”.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Hamının davası



**Xalid KAZIMLI**

**Bir neçə gün öncə Ermənistanın paytaxtı İrəvan şəhərində keçirilən anti-müharibə aksiyasında diqqətləri cəlb edəcək bir şəkil vardı. Nümayişçilərdən biri Ermənistan, Azərbaycan və Rusiya prezidentlərinin -Serj Sarkisyan, İlham Əliyev və Vladimir Putinin portretlərinin üstündən qalın qırmızı boya ilə çalın-çarpaz xətt çəkmiş, belə bir şüar yazmışdı ki, liderləri dəyişək, müharibə bitsin.**

Həmin şüardan elə çıxır ki, bu, Sarkisyanla Əliyevin davasıdır, onlar olmasa, kələf tezliklə çözülər.

26 il öncəyə ekskurs edək. Qarabağ konflikti başlayanda Ermənistanda və Azərbaycanda faktiki olaraq hakimiyyətdə (təbii ki, Moskvanın, Kremlin, Siyasi Büronun, Qorbaçovun patronajlığı altında) Karen Dəmirçiyan və Kamran Bağırov idi. Onların hər ikisini 1988-ci ilin mayında dəyişdilər.

Azərbaycanda və Ermənistanda respublika rəhbəri (KP MK-nin birinci katibləri) postuna yeni adamlar gəldi: Əbdürrəhman Vəzirov və Suren Arutyunyan. Onlar bu münaqişəni yat-yut eləmək üçün çox çalışdılar, amma bacarmadılar. Ox yaydan çıxmışdı. Arutyunyan da, Vəzirov da 1990-cı ildə postlarından uzaqlaşdırıldılar.

Yeni adamlar gəldi: Ayaz Mütəllibov və Vladimir Movsisyan. Onlar da Kremlin göstərişi ilə sabitlik yaratmağa çalışdılar, ancaq gücləri çatmadı. Mütəllibov öz postunda birtəhər iki il duruş gətirsə də, Movsisyan elə 90-cı ildə postunu yeni adama - Stepan Poqosyana təhvil verdi. O da 6 ay işlədi, sonra estafeti daha bir yeni adama - Aram Sarkisyana ötürdü. Sarkisyan Ermənistan rəhbəri postunda cəmi dörd ay oturdu.

Nəhayət, qonşu və düşmən dövlətdə hakimiyyətə kommunist olmayan, milli-azadlıq hərəkatının lideri Levon Ter-Petrosyan gəldi.

1992-ci ilin əvvəlindən başlayaraq sürətli hakimiyyət, daha dəqiqi, lider dəyişikliyi prosesi bizim ölkədə də getdi. Mütəllibov martın əvvəlində devrildi, dövlət başçısı postunda Yaqub Məmmədov oturdu. Y.Məmmədov mayın ortalarında istefa verdi, yerinə İsa Qəmbər gəldi. İyunun 18-də İsa Qəmbər dövlət başçısı vəzifəsini qanuni yolla seçilmiş prezident Əbülfəz Elçibəyə verdi.

Beləcə, Ermənistanda Ter-Petrosyan, Azərbaycanda Elçibəy olmaqla hər iki ölkənin xalq hərəkatçıları düz bir il boyunca vuruşdular, münaqişə müharibəyə çevrildi, gah bu, gah o tərəf üstün oldu, amma heç bir tərəf həlledici qələbə qazana bilmədi və münaqişə davam etdi.

Bir ildən sonra Azərbaycanda yenidən hakimiyyət dəyişikliyi oldu, hakimiyyətə Heydər Əliyev gəldi. Artıq Ter-Petrosyanla gah çəkişmək, gah danışıqlara getmək funksiyasını o daşıdı. Yenə də bir nəticə hasil olmadı. 1998-ci ildə Ter-Petrosyanı məxməri şəkildə devirdilər, Ermənistan prezidenti vəzifəsi qarabağlı Robert Köçəryanın əlinə keçdi. 1999-cu ildə onu da devirəcək, yerinə köhnə kommunist, vaxtilə Heydər Əliyevlə eyni vaxtda analoji vəzifələrdə işləmiş Karen Dəmirçiyanı gətirəcəkdilər. Amma bu layihənin qarşısı amansızcasına alındı. Parlamentin sədri Dəmirçiyanı da, nüfuzlu baş nazir Vazgen Sarkisyanı da (beş-altı başqa vəzifəli şəxsi də) parlamentdə güllələdilər.

Qarabağ münaqişəsi isə atəşkəs rejiminə baxmayaraq davam etdi, nə atəş, nə də təmas xəttində ölənlərin ardı-arası kəsilmədi.

Gün gəldi, Ermənistanda Köçəryan prezident postunu öz siyasi varisi Serj Sarkisyana ötürdü, Azərbaycanda isə hakimiyyətə Heydər Əliyevin varisi İlham Əliyev gəldi.

Bura qədər Azərbaycan tərəfi güzəştə meylli tərəf kimi görünürdüsə, 2005-ci ildən etibarən Azərbaycan rəhbərliyinin ritorikası dəyişdi, müharibə ovqatlı bəyanatlar artmağa başladı. Son aylara qədər Ermənistanda bunları boş hay-küyçülük, quruca təhdid hesab edirdilərsə, artıq anlayıblar ki, müharibə ola bilər, daha doğrusu, onun başlanması an məsələsidir.

İndi hesablayaq. Son 26 ildə Ermənistanda da, Azərbaycanda da dövlət başçısı postunda 8 nəfər olub. Amma münaqişə bitməyib, hətta yeni bir qanlı, dağıdıcı müharibənin astanasına gəlib.

Deməli, bu, Sarkisyanla Əliyevin davası deyil. Bu, sarkisyanların, petrosyanların, poqosyanların, mövsisyanların, nalbandyanların əliyevlərlə, məmmədovlarla, qəmbərlərlə, quliyevlərlə, hacıyevlərlə apardığı davadır. Bu, hər iki ölkədə yaşayanların hamısının bir-biri ilə davasıdır.

Dava torpaq, ərazi, gələcək nəsillərə ötürüləsi ən etibarlı əmanətin davasıdır.

**Ancaq, demokratiyanın bərqərarı, insan haqlarının tapdanmasına son qoyulması, ölkələrdə inkişafa təkan verəcək hərtərəfli dəyişikliklərin start götürməsi naminə hər üç ölkədə hakimiyyətlərin dəyişməsi yaxşı, hətta əla olardı.**

# Metsamor



Zamin HACI
zaminhaci@gmail.com

**Hər kəs bir peşənin yiyəsidir, biz də rayonlarımızı geri qaytarmaq üzrə ixtisaslaşırıq. İgid əsgər Şveykdir, Zakir Həsənovdur, Suvorovdur, rəhmətlik Səfər Əbiyevdir - bizim bu sahədə uğurlarımız göz qabağındadır.**

Uğur demişkən, ilin videotrendi artıq məlumdur: düşmənin hansısa yetim bir nümayəndəsini tutursan, vertolyotla-zadla gətirirsən generalın qabağında başını əyirsən, bunu kamera ilə çəkib yayırsan. Bu düşük, hətta deyərdim kişiyə yaraşmayan hərəkəti rus generallar Orxan Zeynalova tətbiq eləmişdilər, bundan sonra ermənilər Kəlbəcərə baş çəkməyə gedən azərbaycanlı Dilqəm Əsgərova qarşı törətdilər. Ardıyca bizimkilər tutulan xəstə erməniyə qarşı elədilər. Müharibə zamanı düşmən hansısa alçaq hərəkət eləyibsə, bunu mütləq təkrarlamaq lazımdır? Davanı mərdcəsinə də aparmaq olar.

Ancaq bunlar, əlbəttə, ciddi regionlar, ciddi xalqlar üçün söhbətlərdir, Qafqaz kimi dəlixanada yeri yoxdur. İxtisasımıza qayıdaq. Bir neçə oxucular məktub yazıblar, deyirlər ki, ermənilərin 5 rayonumuzu qaytaracağı söhbəti yenidən çıxıb, siz rayonlarımızın qaytarılması mövzusunda mütəxəssissizsiniz (burda çoxlu "s" və "z" hərfləri işlədilir ki, qəlbimizin torpaq sızıltısını oxucular duysunlar), nə fikirləşirsiniz, neçə rayon qaytarılacaq, əvvəl qaytarılanlar necə olacaq, borclu qalan tərəf kimdir və saire.

Mən uca millətimizə təşəkkür edirəm, görürəm hər şeyi, namxuda, oxuyurlar, bilirlər, dəyərləndirirlər. Doğrudan da axırıncı dəfə biz 6 rayon qaytarmışdıq, indi 5 rayon da qaytarsaq, ümumi qaytarılan rayon sayı 11-ə çatacaqdır. Bəs o halda ermənilərə borclu qalmarıqmı? Əldə elədiyimiz əlavə rayonlar bizim nəyimizə gərəkdir? Həmin rayonlara prokuror, polis rəisi, MTN, icra başçısı vəzifələrinə qoymağa lazımi qədər kadr varmı? ASAN-xidmətin avtobusları çatırmı? Fikrimcə, prezidentlərin Soçi görüşündə sambo yarışı zamanı məhz bu detallar üzərində xüsusi dayanmaq lazımdır, hüquq müdafiəçisi İntiqam Əliyevdən intiqam almaq da öz yerində. Hər şeyin zamana ehtiyacı vardır. Bunu rəhmətlik Elçibəy deyibdir.

General Rövşən Əkbərovun dindiriyi, az sonra isə cəsur generalımızın qətiyyətli qartal baxışlarına dözməyib ürəyi partlayıb ölən erməni diversant Karen Petrosyanın əhvalatı isə müharibə tarixinə daha bir yeniliyi əlavə etdi. Generalımız adından xəcalət çəkmədən açıqlanan məlumatdan sitat: "Tutulan erməni diversantın üzərindəki mobil telefonda onun hərbi formada şəkilləri və komandirlərinin telefon nömrələri olub. İlkin sorğu zamanı məlum olub ki, 4 nəfərik qrupun məqsədi ordumuzun mövqelərinin arxasına keçərək təxribat və insan tələfatı törətmək olub. Zərərsizləşdirilən erməni kəşfiyyatçısının üzərindən çıxan mobil telefonda bir sıra şəkillər və hərbi rəislərin nömrələri aşkar olunub. Şəkillərdə isə erməni kəşfiyyatçılarına təlim keçilən bazanın görüntüləri və oradakı hərbi texnika əks olunub" (APA).

Gördünüzmü? Əladır. Yaroslav Qaşek məzarda hərbi salam verir. Qabaqlar diversantlar düşmənin ərazisi və hərbi bazaları haqda məlumat əldə edirdilər, indi isə öz komandirlərinin mobil nömrəsini gətirir, öz hərbi bazalarının şəklini yayırlar. Lənət şeytana, elə bil diversiya qrupu Facebook-da səhifə-zad imiş, Rövşən Əkbərova da dostluq təklif edirmişlər. Əslində müharibə mahiyyətcə çox qeyri-ciddi bir şeydir, ancaq Qafqazda bunun lap ağını çıxardıblar. Yazıq insanlar...

Müdafiə nazirimiz Zakir müəllimin "Mingəçevir su anbarına ermənilər nəsə eləsələr, biz İrəvanı dağıdarıq" deməsi isə daha bir hərbi sirrin üstünü açmışdır. Sən demə Mingəçevirin cavabı İrəvan imiş. 6 rayonumuz ermənilərin 11 rayonuna bərabərdir. Göyçə gölü Göygölə, Spitak Şamaxıya, Noyemberyan Mərdəkana alternativdir. Prezidentin Aparatından bir kərpic düşsə biz Metsamor AES-i göyə sovurarıq.

**Bax, bu niyə Zakir müəllimin ağlına gəlmir, maraqlıdır. Metsamor hamımız üçün, bütün Qafqaz üçün xilas olardı. Oranı partladıb cəhənnəmə vasil olardıq, dünyanın canı bir irindən qurtarardı.**

# Münaqişənin nizamlanmasına yönəlik Rusiya təşəbbüsü...

**Avqustun 10-da Soçidə Azərbaycan prezidenti İlham Əliyev, Rusiya prezidenti Vladimir Putin və Ermənistan prezidenti Serj Sərkisyan arasında üçtərəfli Qarabağ danışıqları aparılıb. President.az saytında gedən qısa məlumatda danışıqlar Rusiya prezidentinin Soçidəki "Boçarov ruçey" iqamətgahında baş tutduğu qeyd olunub.**



## Soçidə Qarabağ danışıqları - nəticə nədir...

### Azərbaycan və Ermənistan prezidentləri 9 aylıq fasilədən sonra Putinin vasitəçiliyi ilə bir araya gəldilər; görüşdə hər hansı sənəd, birgə bəyanat qəbul edilmədi; İlham Əliyev Kreml başçısının hüzurunda Sərkisyana "İşğalçı qoşunlar ərazimizdən çıxmalıdır" dedi; ekspert: "Savaş ehtimalı əvvəlki tək qalır..."

Görüşlə bağlı yayılan xəbərlərə görə, Rusiya prezidenti bildirib ki, Qarabağ probleminin həllini tapılması üçün səbir, müdriklik və bir-birinə qarşılıqlı hörmət lazımdır. Hər iki prezidentin problemin sülh yolu ilə həll eləmək istəyinə müsbət yanaşdığını vurğulayan Pitin daha sonra bildirib: "Mən böyük məmnuniyyətlə bəyan edirəm ki, Azərbaycan prezidenti problemi dinc yolla həll etməyin vacibliyinə diqqət yetirdi. İndi isə siz (Ermənistan prezidenti Serj Sərkisyanı nəzrədə tutaraq-red.) bu haqda öz fikrinizi dediniz. Bu, əslində ən başlıca məsələdir. Çünki insanların ölümündən böyük faciə ola bilməz. Xoş niyyət varsa, istənilən mürəkkəb məsələni həll etmək olar. Mənə elə gəlir ki, belə bir xoş məram həm Azərbaycan, həm də erməni xalqlarında var".

Kreml başçısının sözlərinə görə, Qarabağ problemi keçmişdən, Sovet İttifaqından miras qalıb və onun həll yolunu tapmaq üçün təmkin və müdriklik göstərilməli, bir-birinə hörmətlə yanaşılmalıdır. V.Putin onu da xatırladıb ki, üç dövlət başçısı srağagün axşam sambo yarışlarına baxmağa gedəndə üçlükdə qeyri-rəsmi şəkildə də danışıblar. Onun dediyinə görə, bu da ən ağır mövzularda açıq, səmimi söhbət etmək üçün müəyyən pozitiv atmosfer yaradır.

**Rusiya lideri eyni zamanda münaqişənin həlli ilə bağlı beynəlxalq formata üstünlük verdiklərini söyləyib. Sitat:** "Rusiya Dağlıq Qarabağ münaqişəsinin həllinin beynəlxalq formatlarına hörmətlə yanaşır və həmin danışıqlarda bundan sonra da iştirak edəcək. Amma Rusiya Azərbaycan və Ermənistanla ikitərəfli münasibətlərinin xüsusi xarakterindən münaqişəni həll etmək üçün yararlanmağı da planlaşdırır".

Rusiya dövlət başçısı münaqişənin həlli istiqamətində danışıqların davam edəcəyini deyib: "Biz bütün beynəlxalq formatlara ehtiramla yanaşırıq və bütün həmkarlarımızla birgə Qarabağ məsələsinin həlli üzərində işləməkdə davam edəcəyik. Bizim xüsusi və yaxın münasibətlərimiz var, keçmiş münasibətlərimizin tarixi uzağa gedir. Bu da bizə hazırda harada olmağımız və irəli getmək, keçmişdən miras qalan problemləri həll etmək üçün nə etmək lazım olması barədə açıq və səmimi fikir mübadiləsi aparmağa imkan yaradır".

**Görüşdə çıxış edən Azərbaycan prezidenti İlham Əliyev bildirib ki, münaqişə çox uzanıb və həlini tapmalıdır:** "Bu münaqişə çox uzandı, inanıram ki, Vladimir Putinin iştirakı ilə danışıqlar prosesinə yeni təkan veriləcək. Rusiya prezidentinin dediyi kimi, münaqişənin həll edilməsi üçün hüquqi bazaya əsaslanan format mövcuddur. BMT Təhlükəsizlik Şurası münaqişənin həll edilməsi üçün 4 qətnamə qəbul edib. Orada dəqiq yazılıb ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal etdiyi torpaqlarından çıxarılmalıdır. Təəssüf olsun ki, artıq 20 il keçib, ancaq qətnamələr kağız üzərində qalıb".

**Ermənistan prezidenti isə növbəti dəfə təxribatçı mövqedən çıxış edərək Azərbaycanı ittiham edib. O, münaqişənin ATƏT prinsiplərinə əsasən həll olunmalı olduğunu söyləyib:** "Mən hesab edirəm ki, münaqişə həll edilməlidir. Münaqişənin isə ATƏT-in irəli sürdüyü prinsiplər əsasında həlli mümkündür. Azərbaycan tərəfi həmişə BMT Təhlükəsizlik Şurasının qətnamələrindən söz açır. Azərbaycanın özü o qətnamələrin hansı maddələrini həyata keçirib? Ermənistan isə o qətnaməyə uyğun olaraq döyüş əməliyyatlarını dayandırıb. Biz əgər 1990-cı illərə qayıtsaq, deyə bilərik ki, o vaxtlar kiməsə yaxşı olub, kiməsə pis, bunları deməyin yeri yoxdur. Əgər yenidən bir-birimizi ittiham etsək, bu münaqişə öz həllini tapmayacaq".

**Ermənistan prezidenti sonda görüşün təşkil edilməsi üçün Rusiya prezidenti Vladimir Putinə minnətdarlığını bildirib.**

Danışıqlar 3 prezident arasında aparılsa da, sonradan heyətlərin də qatıldığı bildirilirdi. Təxminən 2 saata yaxın davam edən görüşdən sonra müzakirələr hər hansı sənəd və ya birgə bəyanat qəbul edilmədən yekunlaşıb. Virtualaz.org saytı BBC-nin rus xidmətinə istinadən xəbər verib ki, prezidentlər Vladimir Putin, İlham Əliyev və Serj Sərkisyan sonda belə ümumi qənaətə gəliblər ki, Qarabağ problemi yalnız dinc danışıqlar yolu ilə həll edilməlidir.

> **"Putin onu da xatırladıb ki, üç dövlət başçısı srağagün axşam sambo yarışlarına baxmağa gedəndə üçlükdə qeyri-rəsmi şəkildə də danışıblar"**

***

**Soçi görüşünün yekunlarını "Yeni Müsavat"a şərh edən Atlas Araşdırmaları Mərkəzinin rəhbəri, analitik Elxan Şahinoğlu görüşün proqnozlaşdırıldığı kimi bitdiyini bildirdi. Onun sözlərinə görə, Putin Ermənistanın maraqlarının ziddinə addım atmadı:** "Yəni nə münaqişənin həllinə yönəlik ciddi addımlar atıldı, nə də ki, bəzilərinin ehtimal etdiyi kimi Putin erməni həmkarı Sərkisyana təzyiq etdi. Hətta belə deyənlər var idi ki, guya Kreml sahibi Sərkisyanı Dağlıq Qarabağ ətrafındakı 2 və ya 5 rayonu azad etməyə müvəffəq olacaq. Bunların heç biri baş vermədi. Putinin Ermənistan hakimiyyətinin maraqlarına zidd addım atmayacağı bəlli idi. Çünki o, Qarabağ münaqişəsinin ədalətli həllinə təkan verməklə Sərkisyanın mövqelərinin zəifləməsini istəmir".

**E.Şahinoğlunun qənaətincə, Sarkisyanın Putinin Azərbaycanı qazanmaq məqsədilə qeyd-şərtsiz Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılmasına razılıq verməsi onun siyasi sonunu gətirə bilər:** "Ona görə də Soçi görüşünün nəticəsiz qalması Sarkisyanın maraqlarına uyğun idi. O ki qaldı Azərbaycana, Soçi görüşünü növbəti nəticəsiz görüşlərdən biri kimi unudacağıq. Putinin məqsədi sadəcə prezidentlərdən atəşkəsə riayət edəcəklərinə dair təminat almaq idi ki, Ukraynadan sonra Cənubi Qafqazda da özünə problem yaratmasın. Atəşkəs təminatı Sarkisyanın maraqlarına uyğun idi. Atəşkəsin davamı status-kvonun davamı deməkdir. Azərbaycan isə bununla barışmır. Deməli, cəbhə bölgəsində atəşkəsin pozulması halları davam edəcək. Bu, elə Soçidə görüş keçirilərkən də davam edirdi. Demək, savaş ehtimalı əvvəlki tək qüvvədə qalır".

Qeyd edək ki, Soçi təması ötən ayın sonunda Ermənistan-Azərbaycan cəbhəsində gərginliyin artması fonunda gündəmə gəlib. Cəbhədə baş verən toqquşmalar zamanı 14 Azərbaycan əsgəri şəhid olub. Erməni tərəfi itkilərinin sayını gizlətdiyi iddia olunsa da, ən azı 5 hərbçisini itirdiyini bəyan edib.

Ötən 10 gün ərzində cəbhədə atəşkəs hər gün pozulub. Son olaraq avqustun 9-da - məhz Soçi görüşlərinin başlandığı gün ermənilərin atəşkəsi pozması nəticəsində Ermənistan-Azərbaycan sərhədinin Tovuz rayonu ərazisində, qoşunların təmas xəttində, 1995-ci il təvəllüdlü, Ağsu rayonundan hərbi xidmətə çağırılmış əsgər Fətəlizadə Rüfət Nazim oğlu düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

❑ Kənan RÖVŞƏNOĞLU



# Putinin bütün layihələri iflasda - təhlil

## Rusiya çökür; Avrasiya layihələri fiasko olan Kreml başçısı imperiya tarixində dəfələrlə sınaqdan çıxarılmış, lakin uğursuz bir modelə qayıdır - "mühasirədə olan qala" modelinə...

**2012-ci ildə - növbəti dəfə Rusiya prezidenti olandan sonra Putin dünya liderliyi üçün alışıb-yanmağa başladı və həm özünü, həm də həmvətənlərini Kremlin qısa zamanda SSRİ-ni yeni formatda və keyfiyyətdə - "Avrasiya imperiyası" qismində dirçəldəcəyinə inandırmağı bacardı. Putin "Avrasiya imperiyası" layihəsinin uğuruna o dərəcədə əmin idi ki, hətta açıq şəkildə vəd eləməyə başlamışdı ki, artıq 2015-ci ildə - yəni prezidentliyinin yarısında yeni İttifaqın bəzi əsasları qoyulacaq.**

Ola bilsin, o, növbəti prezidentlik müddətinin sonuna (2018) özünü dünya lideri, "Avrasiya imperiyası"nın böyük hökmdarı, "Bütün Rusiyanın əvəzsiz imperatoru" qismində görürdü. Axı, Gömrük İttifaqı çərçivəsində o, Avrasiya İqtisadi Birliyi üçün Belarusun və Qazaxıstanın razılığını artıq almışdı. Ermənistan və Qırğızıstandan razılıq qoparmaq da ondan xüsusi əziyyət tələb eləmədi.

Ancaq layihənin taleyi və həyat qabiliyyəti lap əvvəldən Ukraynanın orda iştirakına əsaslanırdı. Ukraynasız Moskvanın yeni imperiya ambisiyaları uğursuzluğa məhkum idi. Ukrayna ilə isə Putin gördüyümüz kimi, heç nə edə bilmir. Hələ harasıdır, Rusiyanın bu şərqi slavyan ölkəsi və bütün beynəlxalq ictimaiyyətlə üzücü hərbi-siyasi qarşıdurması "Avrasiya imperiyası" layihəsinin özünü praktik surətdə tam devalvasiyaya, gözdən düşməyə və labüd fiaskoya gətirib.

**Belarus və Qazaxıstan artıq bəyan eləməyə başlayıblar ki, onlar Avrasiya İttifaqı ideyasının siyasiləşdirilməsinin əleyhinədir və yalnız müəyyən iqtisadi inteqrasiya çərçivəsi ilə kifayətlənməyin tərəfdardır.** Rusiyanın Ukraynadakı ekspansionist siyasəti bütün postsovet ölkələrini o dərəcədə qorxudub ki, artıq onlardan heç biri Moskvanın neoimperiya planlarının altına könüllü şəkildə çiyin vermək istəmir.

**Məsələ onda deyil ki, Putin onun üçün "fiks-ideya"ya çevrilmiş "Avrasiya imperiyası" layihəsindən belə tez və asanca imtina edəcək.** İş ondadır ki, Kremlin "Ukrayna planları"nın uğursuzluğu və Rusiyanın getdikcə güclənən sanksiyalar obyektinə və dünya izqoyuna ("təcrid edilmiş", "tullantı dövlət" - red.) çevrilməsi kontekstində layihənin özü cazibədarlıqdan və rəqabət qabiliyyətli perspektivdən məhrum olub. Üstəlik, bu, Kremlin cibinə də uyğun olmayacaq.

**Özünün ekspansionist, "velikoderjav" kursunun əsiri olan Putin faktiki olaraq həm Ukrayna, həm də Qərb dünyası ilə konfrontasiyanı davam etməyə məhkumdur.** Hərgah, bu qarşıdurma Rusiyanın daha da təcrid edilməsinə və zəifləməsinə aparır, bununla belə, Putin artıq özünü elə duruma salıb ki, qaçılmaz məğlubiyyəti etiraf eləmək qabiliyyətində də deyil. Yəqin ki, o, Rusiya tarixində dəfələrlə sınaqdan çıxarılmış bir modelə - "mühasirədə olan qala" modelinə qayıtmağı üstün tutacaq; nəinki Ukrayna və Qərb dünyası ilə təzədən körpülər quracaq. Mahiyyət etibarilə Putin bu modelə artıq qayıdıb.

**Əvvəllər sovet mentaliteti üçün olduğu kimi, Rusiyanın ideya-siyasi mentaliteti üçün də "mühasirədə olan qala" modeli tamamilə adi şeydir.** Bu sindrom "ətrafda hamı yalnız düşməndir, hamı rusiyalılara yalnız bəla, pisliklər və ölüm arzulayır və o səbəbə dünyadan təcrid olunmaqdan, mühasirədə olan monolit, hər cür çətinliyə və məhrumiyyətlərə dözən qalaya çevrilməkdən savayı müdafiə strategiyası yoxdur" ideologiyasına əsaslanır; bu ideologiya əsasında şüurun və bütöv cəmiyyətin davranışının xüsusi zombiləşmiş tipini nəzərdə tutur.

**Bu, təkcə Rusiya (SSRİ) tarixində deyil, bir çox rusiyalının beyninin dərinliklərində oturub.** O səbəbdən Rusiya cəmiyyətində Qərbin sanksiyalarına münasibət olduqca bivec xarakterlidir, çünki bu cəmiyyət tarixən "dəmir pərdə" arxasında sərt və mühasirə vəziyyətinə, qurbanlıq və asketik həyata, soyuğa, aclığa və sıxıntılara vərdişkardır: yeni araq və "zakuska" olsa yetər, yerdə qalanlar boş şeydir.

Bu gün Rusiyanın bütün təbliğat maşını, elitası və cəmiyyəti az qala bütün ətraf aləmi düşmən kimi təqdim eləməklə, dünyadan qalın siyasi, iqtisadi, hərbi, informasiya və başqa divarlarla təcrid olunmağa cəhd göstərməklə "mühasirədə olan qala" sindromu və modelini aktiv şəkildə həyata keçirməkdədir.

**Bütün məsələ də ondadır ki, Putinin ətraf aləmin fəthinə və yeni ("Avrasiya") imperiyasının yaradılmasına hesablanmış ilkin strategiyası ilə Kremlin "mühasirədə olan qala" modelinə can atması bir-biri ilə güclü və həlli qəliz olan ziddiyyətdədir.** Və çətin ki, postsovet ölkələrindən hansısa biri - Belarus, Qazaxıstan və hətta Ermənistan "mühasirədə olan qala" modelinə üstünlük verib, bütün dünya ilə düşmən münasibətdə olan bir imperiyanın tərkibinə daxil olmaq istəsinlər.

**Odur ki, Putin mahiyyət etibarilə təkcə Ukraynanı uduzmur, həm də qanunauyğun şəkildə SSRİ-nin dirçəlməsinə yönəlik, köhnə və ya yeni formatda bütün imperiya layihələrini uduzur.** Bundan əlavə, o, ölkəsini və əhalisini "mühasirədə olan qala" modelinin və sindromunun şərtləri altında həyatın sərt reallıqlarına tuş eləməklə bütün Rusiyanı da məğlubiyyətə aparır.

❑ **Fikrət QARDABANLI**

# Rusiyanın Ukraynadakı baş separatçısı Kremlə ultimatum göndərdi

**Ukraynanın şərqində fəaliyyət göstərən separatçı qüvvələr arasında xaos yaşanır. Kütləvi fərarilik baş alıb gedir. axar.az xəbər verir ki, bu barədə Ukrayna Antiterror mərkəzindən məlumat verilib.**

Etibarlı mənbələrdən əldə olunan məlumata görə, separatçıların lideri İqor Strelkov Rusiya rəhbərliyinə ultimatum göndərib. Ultimatumda bildirilib ki, əgər Rusiya yardım etməsə o, Antraçit (Rusiya ilə sərhəd zonası - red.) tərəfdən geri çəkiləcək.



İqor Strelkov

# Hakimiyyət nəyə nail olmaq istəyir?



Azər RƏŞİDOĞLU

**İctimai fəalların təqibi davam edir. Radikal siyasi rəqiblərini darmadağın edən iqtidar indi də mötədil simaları sıradan çıxartmaqla məşğuldur. Son günlər vətəndaş cəmiyyəti fəallarına qarşı repressiyalar o dərəcədə artıb ki, artıq az-çox siyasətə yaxın olan hər bir kəs öz həbsini gözləyir.**

Ölkədə demokratik azadlıqların son adacıqları da dağıdılır. Baş verən belə bir sual meydana çıxardır - hakimiyyət repressiyalarla nəyə nail olmaq istəyir? Ermənistana və dost olmayan digər qonşulara qarşı informasiya savaşı aparan bir ölkənin rəhbərliyi belə zorakı metodlarla gərginliyi niyə kulminasiya həddinə çatdırmaq istəyir? Bütün bunlarda hakimiyyətin marağı nədən ibarətdir?

Kənar baxışla görünən budur ki, növbəti repressiyalara başlayan iqtidar ölkənin beynəlxalq imicini düşünmür də. Deməli, ortada konkret plan mövcuddur. Son həbslərin öncədən proqnozlaşdırılması da onu deməyə əsas verir ki, sıradan çıxarılacağı planlaşdırılanların konkret siyahısı var və həbslər də məhz həmin siyahı əsasında həyata keçirilir.

Baş verənlərin 2015-ci ilə, növbəti parlament seçkilərinə qədər yekunlaşa biləcəyini öncələr də proqnozlaşdırmışdıq.

Azərbaycan müxalifətini resurslardan məhrum edən, müstəqil və müxalifət mətbuatı sıradan çıxardan hakimiyyət növbəti mərhələdə "üçüncü sektoru" hədəf seçdi. Qanunvericilik əsasında QHT-lərə qarşı amansız savaşa başlayan iqtidar, eyni zamanda siyasi məhbusları məhkəmələrdə müdafiə edən, onlar barədə yerli məhkəmələrin çıxartdıqları qərarlardan Avropa məhkəməsinə şikayət hazırlayan vəkilləri də həbs etməyə başladı.

Həbs edilənlər məhkəməyə ironik gülüşlə getsələr də, baş verənlərin ən ağrılı məqamı odur ki, cəmiyyət vahimə içindədir. Artıq kimlərsə özünü senzuraya məruz qoyur və bu qarmaqarışıq dövrdən salamat çıxmağı arzulayır.

Bir sözlə, iqtidar oturuşmuş siyasi təşkilatları, QHT və mətbuatı sıradan çıxartmaqda israrlıdır.

Qərbə, beynəlxalq təşkilatlara qarşı "səlib yürüşü"nə başlayan iqtidar anlayır ki, yenidən Rusiya bayrağı altında yaşasa, heç kəs ona demokratik tələblərdə bulunmayacaq. Odur ki, Kremlə tərəf addımlayır.

Kənar baxışla görünən budur ki, hakimiyyət sona qədər "qaykaları sıxmaq" niyyətindədir. Cəmiyyəti tam vahimə və qorxu altına alan iqtidar rəqiblərini tamamilə məhv etmək məqsədi güdür.

Son həbslər əslində ABŞ və Qərb demokratiyası üzərində qurulan prosesdir.

İstənilən halda, son təqiblər Azərbaycanın demokratik imicini tam zədələdi.

Artıq bu ölkə demokratik Avropanın bir hissəsi deyil. Azərbaycan uğurla, iri addımlarla Şimali Koreyaya doğru irəliləyir.

İstənilən halda Azərbaycanda dəyişikliklərin olması zamana bağlı məsələdir. Lakin bunun Yaxın Şərqdəki kimi qanlı, yaxud Gürcüstandakı kimi məxməri olacağı bəlli deyil. Qərb ideoloqları ciddi şəkildə düşünməlidirlər - Azərbaycanda siyasi kataklizmlər başlanacağı təqdirdə onların maraqlarına hansı zərbələr dəyə bilər? Ölkədə demokratik təsisatların məhvi marginal qrupların qol-qanad açmasına şərait yaradır.

Cəmiyyət bu dərəcədə alçaldılmış və rəzil vəziyyətdə olmasaydı, hakimiyyət islahatlara getmək zorunda qalacaqdı. İqtidar isə qarşıdakı parlament seçkilərini də öz nəzarətində formalaşdırmaq istəyir.

**Baş verənlərə Qərbin reaksiyası da maraqlıdır. Yenə də "narahatıq", "çox narahatıq" ifadələrindən uzağa getməyən Qərb diplomatları Azərbaycandakı repressiyalara yanaşma tərzlərini də dəyişməlidir...**

YENİ MÜSAVAT
N 200 (5909) 11 avqust 2014



# Yada düşən Qapanlı

Kənan RÖVŞƏNOĞLU

**Ötən həftə prezidentin Ağdama gözlənilməz səfəri oldu. Səfərdən əvvəlki axşam kəndlə danışdım, dedilər ki, vur-həşir yolları düzəldirlər, ilərdir təmizlənməyən yol kənarını bir neçə saatın içində çiçək kimi ediblər.**

Ertəsi gün saytlarda bir şəkil gördüm. Tərtərin döyüş xəttinə ən yaxın kəndi olan Qapanlıya gedən yolu asfaltlayırdılar. Görünür, yerli hökumət məmurları elə düşünüblər ki, ölkə başçısı Ağdamdan Tərtərə - Qapanlıya gəlmək istəyər, o yollar isə çox bərbaddır.

Açığını deyim ki, şəkli görəndə sevindim. Nə də olmasa yolları düzəldirdilər. Bilməyənlərə deyim ki, Qapanlı yolunun üstündə 3 başqa kənd də var. Sovet vaxtı orda normal yollar olsa da, müharibə vaxtı zirehli texnikaların hərəkəti, daha sonra ötən 20 ildə baxımsız qalması səbəbindən o yollar çox bərbad vəziyyətdə idi.

Bu sətirlərin müəllifi o yolları görüb, sürücülər o yollarda çuxura düşməmək üçün sözün həqiqi mənasında manevrlər edirdilər. İndi Allaha şükür olsun ki, nəhayət, Qapanlının və eləcə də daha 3 kəndin yolu asfaltlanıb. Amma doğrudanmı bu asfaltın salınması üçün 20 illik vaxt, cəbhədə döyüşlərin baş verməsi və nəhayət, ölkə başçısının Ağdama səfər etməsi lazım idi?

Bəs digər kəndlər? Adətən savaş ehtimalı gündəmə gələndə və ya cəbhədə gərginlik artanda yada düşən, tez-tez xatırlanan Tərtərin başqa kəndləri də var axı. Bu kəndlərdə də vəziyyət həddən artıq pisdir. Yollar dağılıb, içməli su, qaz problemi hələ də qalır. Təsəvvür etmək nə qədər çətin olsa da, günü bu gün Tərtərin bir çox kəndlərində əhali hələ də içməli suyu pulla alır. Qaz isə bir çox kəndlərdə ümumiyyətlə, yoxdur.

Bir dəfə bu haqda yazmışdım. SOCAR Gürcüstanda bütün ibadət mərkəzlərinin - müsəlman, xristian, yəhudi - qazlaşdırılmasını öz öhdəsinə götürüb, pulsuz qazla təmin edir. Alqışlanmalı addımdır. Allah evlərinə gələn insanlar üçün bundan xeyirxah addım ola bilməz. Amma maye yanacaqdan bu ölkənin sakinlərinin də istifadə etmək haqqı var. Görəsən, Rövnəq Abdullayevin xəbəri varmı Tərtərin bir çox kəndləri hər qış şimal rayonlarından gətirilib satılan odunları pulla alıb qızınır?

Yoxdursa, bu daha pis, amma varsa, bunun kimin ayağına yazaq. Azərbaycanın qazlaşdırılmasının başa çatdırılması (yenidən qurulması üçün yox - K.R) iki il əvvəl 1 milyard manatdan çox vəsait ayrıldı. Amma o vəsait Tərtərə qədər gəlib çatmadı. Hər il dövlət büdcəsindən içməli su, artezian quyuları üçün milyonlarla manat vəsait ayrılır. Amma cəbhə bölgəsinin kəndləri hələ də içməli suyu pulla alır. Halbuki hər kənd üçün iki-üç quyu qazdırıb içməli su problemini həll etmək olardı. Mən hələ azca külək əsən kimi sönən işıqları demirəm.

Doğrudanmı, bir rayonun, kəndin sosial problemlərinin həll olunması, yollarının təmir olunması, yol qırağının zibillərinin təmizlənməsi üçün ölkənin birinci şəxsinin ora səfər etməsi lazımdır? Axı bu, yerli icra qurumlarının, təsərrüfat idarələrinin etməli olduğu işlərdir, bunun üçün birinci şəxsin gəlməsinə ehtiyac olmamalıdır.

Və sonda rayonlarla bağlı bir ağlamalı detal. Rayonlara təyin olunan hər yeni icra başçısının rayon mərkəzində yerə döşənmiş daşları (elə arasında tamet - K.R) dəyişərək yenisini düzdürməsi artıq xalq yaradıcılığının əsas elementlərindən birinə çevrilib. Bu mövzuda xeyli sayda əhvalatlar, lətifələr qoşulub. Tərtərin hər yeni gələn icra başçısı rayon mərkəzinə, xüsusən də İH binası qarşısına daş düzdürür.

**Əvvəlki başçılar köhnəni sökdürüb yenisini düzsələr də, budəfəki başçı camaata əziyyət verib köhnəni sökdürməyib. Əvvəlkinin üzərindən yenisini düzdürməyə başlayıb. İndi deyilənə görə, rayon camaatı danışır ki, belə davam edəsə rayon bir xeyli ucalacaq. Üst-üstə yığılan tametlər sayəsində...**



# Xəstəlikdən kirayədə ölən gənc mayorun dramı...

## Rəşid Məmmədovun anası: "Vətən üçün oğul böyütmüşdüm, sonda vətənə də lazım olmadı..."

**Ağlaşma və qışqırıq səsləri uzaqdan belə eşidilirdi. Otağa girdiyimdə 20-yə yaxın yaşlı qadın kiməsə haraylayıb ağlamaqda idi. Küncdə dayanan yaşı 70-i ötən qadın isə sakitcə, səssiz ağlayırdı. Qara yaylığın altından çıxan saçlarını içəri salır, yaylığı bir az da qabağa çəkir və qırışmış dəsmalı gözlərinə tutub ağlayırdı...**

"Ölən mayorun anasıdır" - dedilər. Jurnalist olduğumu bilib hönkürdü: "Balama kömək olsun deyə jurnalistlərə də müraciət etmişdim" - dedi. Kiçik mavi gözləri şişmişdi və ağlamaqdan yumulurdu. Üzündəki dırnaq izlərində isə qurumuş qan ləkələri vardı...

Təskinlik üçün bircə söz belə tapa bilmirəm, ana isə oğlunun hərbi geyimdə olan şəklinə əlini uzadıb deyir ki, vətən üçün oğul böyütmüşdü, sonda vətənə də lazım olmadı...

Söhbət bir neçə gün əvvəl dünyasını dəyişən mayor Rəşid Məmmədovdan gedir. O, Göygöl rayonunun Əbləh kəndində dəfn edilib. Öyrəndik ki, rayonda Rəsulzadə küçəsində kirayə mənzildə yaşayan Məmmədovlar ailəsi mərhumun dəfnini rayon mərkəzində təşkil edə bilməyiblər, bu səbəbdən mayor kənddə basdırılıb. Rayonda onunla eyni həyətdə kirayə qalan qonşular da baş verənlərdən təəssüfləndiklərinin bildirirlər: "Ordunun əsgərinə, zabitinə, mayoruna olan qiymət budurmu? O, neçə ay burada kirayə qaldı, ağır idi vəziyyəti, imkansızlıqdan müalicəsini tamamlaya bilmədi..."

**Anası Səriyyə Məmmədova isə oğlunun hərbçi olduğu dönəmlərdə yaşadıqları çətinliklərdən ağlaya-ağlaya danışır. Deyir ki, daha çox cəbhə bölgəsində xidmət edən Rəşidin ailəsi də, anası da onunla birgə həmin çətinlikləri bölüşüb:** "Ömrümüz-günümüz dağlarda, dərələrdə keçdi, oğlum torpağın hər qarışını müqəddəs bildi, vətən bildi, amma sonda ona sahib çıxan olmadı".

Öyrənirik ki, dünyasını dəyişən mayorun yeddi yaşlı bir qızı var. "Evsiz-eşiksiz, sərgərdan gəzirdi balam. Ailəsi, bir qız balası, bir də mən də onunla birgə. Tovuzda xidmət edəndə xəstələndi, sonu da belə..."

**R.Məmmədovun bacısı isə bildirir ki, qardaşı 17 yaşından vətənə xidmət edib:** "Oxudu, əsgərlik... sonra da qalıb işlədi. İşlədiyi müddətin 80 faizi cəbhə bölgələrində olub, Ağcabədidə, Tovuzda, digər yerlərdə. Xəstəliyi qəflətən ortaya çıxdı, ağrıyırdı, analiz verəndə xərçəng olduğu məlum oldu. İki ay hospitalda yatdı, sonra Türkiyəyə apardılar. Müalicəsinin bir azını dövlət etdi, qalanını özümüz. Müalicəni imkansızlıqdan davam etdirə bilmədik və qardaşımızı itirdik".



**Söhbətə qohumlar da qoşulur və müalicənin bir hissəsinin dövlət tərəfindən qarşılandığını, sonra birdən-birə xəstədən imtina olunduğunu bildirirlər:** "Dedilər ki, Türkiyədə xəstəxanada yer yoxdur, yer olanda yenə müalicə üçün aparacaqlar". Qohumların sözlərinə görə, zabit Türkiyədə iki aya yaxın müalicə olunsa da, kurs başa çatmamış maliyyə vəsaitinin bitdiyi əsas gətirilərək, geri çağırılıb. "Baxmayaraq ki, kurs tam başa çatdırılmalı və təxminən bir ay fasilədən sonra ilik köçürmə mərhələsi olmalı idi. Amma Azərbaycan tərəfdən maliyyə vəsaiti ödənilmədi, ailənin də imkanı olmadı. Nəticədə 39 yaşlı mayorun, 21 ilin hərbçisinin sonu pulsuzluq səbəbindən bu cür tamamlandı".

**Qeyd edək ki, bir neçə gün əvvəl mayorun anası ölkə mediasına müraciət edərək, oğlunun müalicəsi üçün kömək istəmişdi.** Bildirilirdi ki, R.Məmmədov 2013-cü ilin sentyabr ayında səhhətində yaranmış problemlə əlaqədar Bakıda Hərbi Hospitalda müayinə keçib və ona mieloma, yəni qan xərçəngş diaqnozu qoyulub. Hospitalda müayinə kursu keçdikdən sonra dövlət xətti ilə Türkiyənin Gülhanə Hərbi Xəstəxanasına göndərilib. Ancaq müalicə bitmədən geri qaytarılıb.

**Ana oğlunun müalicəsinə dəstək göstərilməsi üçün mediaya səslənmişdi.** "İndi mediadan bir istəyiniz varmı" soruşuram anadan. "Daha nə istəyim ki? Oğlum idi, onun sağ qalması idi istəyim, o da getdi" - deyir və yenə dəsmalı gözlərinə sıxıb için-için ağlayır. Qohumlar isə otağın digər küncündə oturub ağlayan gənc qadını göstərirlər - "Rəşidin həyat yoldaşıdır" deyirlər. Onu da öyrənirik ki, ailənin maddi durumu ağırdır və ona dövlətin dəstəyi vacibdir: "Rəşid ailəsi ilə bərabər illərlə bölgələri gəzdi, qoca anası, yoldaşı baqajlarda əşya, yük daşıya-daşıya onunla birgə çətinlik içində yaşadılar. İndi də yeddi yaşlı bir qızı qalıb, nə evi var, nə torpağı. Heç olmasa, dövlət onun ailəsinə kömək etsin ki, küçələrdə qalmasın. Nə də olsa, bu vətənin əsgəri idi..."

**Mayorun yeganə qardaşı isə qadınların otağına gələrək bu fikirlərə etirazını bildirir:** "Nəyə danışırsınız? Guya yazılmaqla nəsə kömək olacaq? Xəstəliyinə kömək oldu ki, bundan sonra da ola?.."

❑ Röya RƏFİYEVA
Fotolar müəllifindir

YENİ MÜSAVAT
N 200 (5909) 11 avqust 2013

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi




# Amerikalı politoloqlar amerikalı həmsədrə qarşı

## Qarabağ məsələsində ABŞ-ın rəsmi mövqeyi onun ekspert dairələrinin yanaşmasından niyə fərqlənir? **Pol Qobl:** "Dağlıq Qarabağ Azərbaycanın tərkibində geniş muxtariyyət almalıdır"; **Ronald Suni**: "Qarabağ Azərbaycanın tərkibində qalmalıdır..."

**Cəbhə xəttində vəziyyətin atəşkəs dövründə pik həddə kimi qəfil kəskinləşməsi bir təhlükənin real olduğunu əyani nümayiş etdirdi. Bu da ondan ibarətdir ki, atəşkəs istənilən an genişmiqyaslı müharibəyə gətirə bilər və heç kim - nə münaqişə tərəfləri, nə də konfliktə cəlb olunan digər ölkələr və güclər bundan sığortalanmayıb. Bunu indi hamıdan çox yəqin ki, vasitəçi dövlətlər gördü və anladı.**

Demək, münaqişə tərəfləri arasında ayrıcı qüvvələr olmadan təmin edilən status-kvo durumu sonsuz davam edə bilməz və problemin dinc danışıqlar yolu ilə, ədalətli həlli tezləşdirilməlidir. Əfsus ki, ixtilafın həllinə cavabdeh olan vasitəçi dövlətlər, ələlxüsus ATƏT-in Minsk Qrupunun həmsədrləri hələ də dalanda olan nizamlama prosesini oradan çıxarıb irəli aparmaq əzmi nümayiş etdirə bilmir.

Hərgah, xüsusən də Qərbi təmsil edən vasitəçilər (ABŞ, Avropa) situasiyanın qorxulu məcrada inkişaf tapa biləcəyindən narahatlıq keçirdiklərini gizlətmirlər. Məhz belə narahatlığın təzahürüdür ki, Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik "Amerikanın səsi" radiosunun rus bölümünə müsahibəsində "Dağlıq Qarabağ daha dondurulmuş münaqişə deyil" deyib.

"Təəssüf ki, regiondakı qarşıdurmalar münaqişənin artıq dondurulmuş vəziyyətdə olmadığını göstərir. Siz öldürülmüş və ya yaralanmış əsgərlərin ailələrini konfliktin dondurulduğuna inandıra bilərsinizmi? Çətin. Aydın məsələdir ki, yaranmış durum bizi narahat edir. Situasiyanın yumşaldılması üçün təxirəsalınmaz tədbirlər görülməlidir", - deyə diplomat bildirib.

****

Amma necə? Bu tədbirlər necə effektli ola bilər ki, hələ də təcavüzkar tərəflə təcavüz qurbanı olan tərəfə eyni gözlə baxılır, "problem qarşılıqlı güzəştlər əsasında həllini tapmalıdır" kimi ziyanlı və beynəlxalq hüquqa daban-dabana zidd bir postulat əsasında danışıqların aparılmasına cəhdlər olunur, hansısa mifik uğura ümid edilir?!

Uorlik də bu xüsusda prezidentlərin Soçi görüşündən nəticə gözlədiyinə ümidli olduğunu söyləyib. Eyni zamanda problemin həllinə ilk növbədə prezidentlərin hazır olmasını vacib sayıb: "Təbii ki, tərəflərdən heç biri digərinin gözündə zəif görünmək istəmir. Ancaq biz bir şeydə əminik - sülh danışıqlarında, müharibədə yox".

Yenə köhnə, yanlış və şablon yanaşma. Açıqca görünür ki, Qərb, məxsusən ABŞ Dağlıq Qarabağın işğalına Krımın işğalı, münaqişə tərəfləri olaraq Azərbaycan və Ermənistana isə qarşı duran Ukrayna və Rusiya kimi baxmır. Rusiyaya qarşı amansız olan Amerika və Avropa nədənsə Qarabağ məsələsində ərazisinin 20 faizi işğal edilən Azərbaycandan güzəşt umur. Suverenliyi, ərazi bütövlüyü pozulmuş Azərbaycan erməniyə nəyi güzəştə getməlidir görəsən - Dağlıq Qarabağımı, yoxsa onun ətrafındakı rayonlardan 1-2-ni, tutaq ki, Laçını və ya Kəlbəcərimi? Bizim ən böyük güzəştimiz elə işğala dözməyimiz deyilmi?

Diplomatın məsələdə Rusiyanın tutuğu mövqeyə münasibəti də produktiv sayıla bilməz. **Sitat:** "Rusiyanın Qarabağ münaqişəni qızışdırmaqda maraqlı olmasına gəlincə, hazırda Moskvanın özünün öz sərhədlərində problemlər yaşanır. Bu mənada o, yeni təxribatlarda maraqlı ola bilməz. Biz Rusiya tərəfi ilə effektli şəkildə işləyirik və mən əminəm ki, Moskva təzə problemlər istəmir".

Rusiya bəlkə də yeni problemlər istəmir, ancaq Qarabağ problemini də sırf öz maraqlarına uyğun, beynəlxalq hüquqa uyğun gəlib-gəlməməsindən asılı olmayaraq çözmək istəyir.

Amerikalı vasitəçinin daha bir ziddiyyətli fikri. Onun sözlərinə görə, dünyadakı situasiya ABŞ-ı narahat edir, ancaq bu, heç bir halda Dağlıq Qarabağ məsələsinin prioritetliyinin azalmasına səbəb olmamalıdır. Prioritet isə artıq azalıb. Çünki bəlli olub ki, Vaşinqton postsovet məkanında da işğalçılıq hərəkətlərini, işğalçıları növlərə bölür - Amerikaya sərf edən işğal (Dağlıq Qarabağ) və sərf eləməyən (Krım, Abxaziya, Cənubi Osetiya, Dnestryanı bölgə) işğal.

Rusiya isə başı nə qədər Ukrayna məsələsinə qarışsa da, Qarabağ məsələsinin ondan ötrü həmişə prioritet olduğunu dəfələrlə sübut edib. Prezidentlərin Soçi görüşü bunu bir daha ortaya qoydu. Əfsuslar olsun ki, bu prioritetlik Azərbaycan üçün, problemin köklü və ədalətli həlli üçün pozitiv heç nə vəd eləmir.

****

Ancaq nə yaxşı ki, Amerika ekspert dairələrində münaqişənin həlli məsələsinə kifayət qədər obyektiv, ədalətli və rasional baxanlar da var. "Ermənistan çox təhlükəli bir dövr yaşayır və bu səbəbdən o, uzunmüddətli addımları əsas götürməlidir, nəinki qısamüddətli". musavat.com-un məlumatına görə, bu sözləri nüfuzlu amerikalı politoloq Pol Qobl "Amerikanın səsi"nə müsahibəsində bildirib. Onun sözlərinə görə, İrəvan düşdüyü mürəkkəb vəziyyətdən çıxmaq üçün tədbirlər görməlidir: "Bu nöqteyi-nəzərdən Ermənistan üçün "yaxşı variantlar" yoxdur, ölkə pislərin yaxşısını seçməlidir".


Ceyms Uorlik


Pol Qobl


Ronald Suni

**Qobl Rusiyanı Ermənistanın dostu saymadığı da söyləyib:** "Düşünmürəm ki, Rusiya Ermənistanın tərəfindədir. Məşhur ifadə var: Moskva üçün Gürcüstan - yol, Ermənistan - silah, Azərbaycan isə - dəyərdir. Rusiya Ermənistandan müstəsna olaraq öz maraqları üçün istifadə edir".

**Politoloq Rusiyanın Kremli işğal eləməklə böyük səhvə yol verdiyini deyib:** "O mənada ki, indi bütün ölkələr sərhədlərin zorla dəyişdirilməsindən narahatdır. Əgər Ermənistan da eyni yolla gedib Qarabağı ilhaq eləsə, o yeni müharibə və təcridlə üzləşəcək. Ermənistan, daha doğrusu, ermənilər strateji düşünə bilmirlər. Ermənistan bu gün 25 ildən sonra özünü necə gördüyü barədə fikirləşməlidir. Bundan ötrü Qarabağ məsələsi Azərbaycanla anlaşma əsasında həllini tapmalıdır".

Erməni jurnalistin "bu, o deməkdirmi ki, Ermənistan Qarabağı unutmalıdır" sualına ekspert belə cavab verib: "Şəxsən mən hesab edirəm ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində geniş muxtariyyət almalıdır". Yəni tamamilə ədalətli, sırf beynəlxalq hüquqa söykənən, eyni zamanda Azərbaycanın da illərdir təklif elədiyi haqlı bir yanaşma.

****

Vaşinqtondakı digər analitiklər də vəziyyəti diqqətlə izləyir. Məsələn, **Miçiqan Universitetinin tarix üzrə professoru Ronald Suni** hesab edir ki, vasitəçilər danışıqlar apara bilməz, münaqişə tərəfləri özləri bir-biri ilə ünsiyyətdə olmaq istəyib-istəmədiyinə qərar verməlidirlər. Bunu o, "Turan"ın müxbirinə Qarabağda qarşıdurma xəttindəki son gərginləşmə və ümumilikdə vəziyyətlə bağlı şərh verərkən deyib.

Hazırkı vəziyyətdə atəşkəsə necə nail olmaq olar? Bu suala cavabda Suni vəziyyətin istənilən an gərginləşə biləcəyini və Ukraynada və Qəzzə bölgəsində baş verən proseslərin təkrarlana biləcəyini yadda saxlamaq lazım olduğunu qeyd edib: "Bu səbəbdən tərəflər bütün məsuliyyəti dərk etməli və tez və qətiyyətli hərəkət etməlidirlər".

**Politoloqa görə, vəziyyət kifayət qədər ağır və pisdir, amma heç kim, o cümlədən hökumətlər və maliyyə qrupları onun daha da pisləşməsini istəmir. Bəs, tərəflərin ortaq məxrəc tapa bilməsi üçün güzəşt nədən ibarət ola bilər? Bu suala cavabda Suni bildirib ki, aşağıdakı variant güzəşt hesab oluna bilər:** "Dağlıq Qarabağ de-yure Azərbaycanın tərkibində qalacaq, onun sakinləri isə tam muxtariyyətə malik olacaqlar. Bu, region əhalisinin əksəriyyətinə, yeni ermənilərə hüquq verir. Bu zaman Azərbaycan əhalisi öz yerlərinə qayıdacaq. Bu variant 1997-ci ildə artıq təklif edilmişdi və Ermənistanın o zamanki prezidenti Levon Ter-Petrosyan tərəfindən qəbul olunmuşdu. Lakin o, hakimiyyətdən uzaqlaşdırıldı, bu variant isə həyata keçirilmədi".

**Bəs indilikdə ermənilər üçün belə bir variant nə dərəcədə cəlbedicidir? Professor bu suala birmənalı cavab verməyin çətin olduğunu söyləyib.** "Çünki indi kin və qorxu hər zaman olduğundan daha çoxdur. Lakin babası Qarabağda dünyaya gəlmiş bir insan kimi bilirəm ki, iki xalq arasında ünsiyyət var idi və onlar yüzillər boyunca bir yerdə yaşayır və yaxşı yola gedirdilər", deyə o qeyd edib.

****

**Göründüyü kimi, hər iki analitik Ermənistan üçün real və əsaslı bir proqnoz verərək onu ağla və rasionalizmə dəvət edib, Dağlıq Qarabağ məsələsinin beynəlxalq hüquqa söykənən optimal həll modelini təklif edib.** Özlərini illərdir dağa-daşa salan və mürəkkəb oyunlar quran vasitəçilər gerçəkdən realist düşüncə sahibi olsaydılar, politoloqların bu təzislərini əsas götürsəydilər, problem çoxdan tarixin arxivinə verilmişdi.

**Bəlkə vasitəçiliyi politoloqlara təhvil verəsiniz...**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi



## Dərnəgüldəki obyekt sahiblərinə bir həftə vaxt verildi

### Yolun inşası kənarlarındakı tikililərə görə gecikir; sahibkarlar isə Apelyasiya Məhkəməsinin qərarını gözləyirlər

**Bir neçə ildir tikintisi davam edən - paytaxtın böyük prospektlərindən olan, "Dərnəgül yolu" kimi tanınan Ziya Bünyadov prospektinin hələ də hazır olmamasının daha bir səbəbi məlum olub. "Azeryolservis" ASC-nin tikintiyə nəzarət edən nümayəndələrinin əməkdaşımıza verdiyi məlumata görə, şose üzərində olan obyekt sahibləri edilən xəbərdarlığa baxmayaraq mülklərini hələ də boşaltmayıblar.**




Onların sözlərinə görə, bu yolda olan obyekt sahibləri ilə kompensasiya məsələsində çoxdan razılığa gəlinib. Ancaq onlar obyektlərindən çıxmadığından yolun tikintisi ləngiyir.

"Azeryolservis" ASC-nin işçiləri bildirdilər ki, Avropa Yay Oyunlarına hazırlıqla bağlı Nəqliyyat Nazirliyinə bir sıra göstərişlər verilib. Onlardan biri də, Dərnəgül şosesində aparılan tikinti işlərinin tez bir zamanda tamamlanmasıdır. Elə buna görə də, kompensasiya alıb obyektlərindən çıxmayan sahibkarlara bir həftə vaxt verilib. Müddət bitdikdən sonra onlar qanunun tələbinə uyğun olaraq obyektlərindən çıxarılacaqlar.

Söhbət etdiyimiz obyekt sahibləri isə kompensasiya ilə bağlı narazılıqların olduğunu, eyni zamanda daşınma ilə bağlı dövlət tərəfindən veriləcək vəsaitin onlara çatmaması ucbatından mülklərini tərk etmədiklərini söylədilər. Onların sözlərinə görə, bəzi sahibkarlar məhkəmə qərarı ilə bağlı apelyasiya şikayəti veriblər. Şikayətləri təmin olunmayana kimi də obyektlərindən çıxmaq fikirləri yoxdur.

Ərazidə olarkən öyrəndik ki, Dərnəgül şosesində yol ötürücülərinin tikintisi də gecikir. Məsələn, Ziya Bünyadov prospekti ilə Müzəffər Nərimanov küçəsinin kəsişməsində inşa olunacaq yol qovşağının tikintisi 2010-cu ilin yanvarında başlayıb. Tikintinin sifarişçisi Nəqliyyat Nazirliyi və "Azəryolservis" ASC, layihəçi "Akin projekt" MMC, "Azərnəqliyyatlayihə", podratçı isə "İHİ" MMC-dir. 5,5 metr hündürlüyündə olacaq iki mərtəbəli körpü-tunel kompleksinin girişində vurulan lövhədə isə layihənin 2012-ci ilin dekabrında başa çatacağı və obyektin məhz o vaxt istifadəyə veriləcəyi haqda məlumat yazılıb. Amma burada hələ də tikinti işləri davam edir.

Qeyd edək ki, yenidənqurma işləri çərçivəsində prospekt üzərində 4 yeni yol ötürücü qovşaq tikilir, bir qovşaq isə ("Çermet" körpüsü adlanan ərazidə) yenidən qurulur. Yeni qovşaqlardan biri yolun başlanğıcında - Nəsimi rayonu ərazisində A.Mustafayev, R.Məmmədov, A.Salamzadə küçələrinin Z.Bünyadov prospekti ilə kəsişdiyi yerdir ("Xutor dairəsi"). İkinci qovşaq Z.Bünyadov prospektinin Əhməd Rəcəbli küçəsi ilə kəsişməsində ("Xaqani Petrol" yanacaqdoldurma məntəqəsi yanında), üçüncü qovşaq Z.Bünyadov prospektinin Böyükşorla kəsişməsində, dördüncü qovşaq prospektin Müzəffər Nərimanov küçəsi ilə kəsişməsində tikilir.

Ziya Bünyadov prospektinin Alı Mustafayev, Rəşid Məmmədov və Əbdülvahab Salamzadə küçələrinin kəsişməsindəki dairədən tutmuş Böyükşor küçəsinədək hissənin rekonstruksiyası hazırdır. Ancaq Olimpiya stadionunun tikintisi ilə əlaqədar yolun bu hissəsinin tikintisi müvəqqəti olaraq dayanıb.

İş icraçılarından öyrəndik ki, prospektin ümumi uzunluğu 9 km, eni isə 50-60 metr olacaq.

Ziya Bünyadov prospektinin başlanğıcından Azadlıq prospektinə qədər 12 hərəkət zolağı, yolun yerdə qalan hissələrində isə 10 zolaq yaradılacaq ki, bu zolaqların 4-ü sürətli hərəkəti təmin edəcək.

**Layihə çərçivəsində yeraltı və yerüstü piyada keçidlərinin tikilməsi, Ziya Bünyadov prospektinin ərazisində yağış kanalizasiyasının yaradılması da planlaşdırılıb. Eyni zamanda Binəqədi, Nərimanov və Nəsimi rayonlarında sənaye və yaşayış məntəqələrindən keçidiyinə görə ağır yüklü və sərnişin nəqliyyatının normal hərəkətinin təmin olunması üçün hər tərəfdən 3 olmaqla, 6 köməkçi yolun çəkilməsi nəzərdə tutulur.**

**❑ Fərahim İLQAROĞLU**
**Fotolar müəllifindir**

---

**Son 10 gündə cəbhədə vəziyyət gərginləşib, 20-yə yaxın şəhid vermişik. Geniş miqyasda müharibənin başlayacağı da istisna edilmir. Birinci Qarabağ savaşı zamanı vətəndən kənarda yaşayan xeyli soydaşımız vətənə dönmüşdü. Ötən 20 il ərzində siyasi, iqtisadi və ya dini baxımdan vətənini tərk edən, mühacirət edən insanlar var. Maraqlıdır bu gün müharibə başlayarsa, onlar Azərbaycana dönüb, yurd uğrunda savaşarmı?**

# Müharibə başlasa siyasi mühacirlər vətənə dönərmi?



**Mirzə Sakit:**
**"Gəlib ön cərgədə olaram ki, gənclərimizə güllə dəyməsin"**



**Eldəniz Yusibov:**
**"Qarabağın azadlığı azad, ədalətli seçkilərdən, demokratik bir cəmiyyətin qurulmasından keçir"**



**İlham Həsən:**
**"İndiki rejimin müharibə edəcəyinə inanmaq absurddur"**



**Fikrət Hüseynli:**
**"Bu yolda da vətənə gəlmək lazım olsa, düşünmədən o addımı ataram"**

*Ümumiyyətlə, mühacirlərimiz son günlər yaranmış bu proseslər barədə nə düşünür?*

**Hazırda Belçikada mühacir həyatı sürən, satirik yazar Mirzə Sakit** suallarımızı cavablandıraraq bunları dedi: "İnanın ki, cəbhəyə getsəm özümü çox xoşbəxt hesab edərəm. Əsgərlərimizə hər gün ruh verərəm, özüm də ön cərgədə olaram ki, gənclərimizə güllə dəyməsin".

**Hüquqi baxımdan ölkəyə gəlmə imkanın olub-olmamasını xəbər aldıqda isə M.Sakit bildirdi ki, bu mümkündür:** "İstədiyim zaman gələ bilərəm, amma indi buranın vətəndaşlığını almadan gəlsəm uşaqlarımın sənədlərinə də problem yaratmış olaram. 3 il sonra vətəndaşlığa qəbul olacağam. Amma buranın qanunvericiliyində də istisnalar var, mən də bu istisnalardan yararlanıb gələ bilərəm".

**Qürbət eldə yaşayaraq vətən həsrətini çəkməyin ağırlığından danışan M.Sakit düşüncələrini belə izah etdi:** "Bilənlər bilir şair üçün qürbətdə yaşamağın necə dəhşətli olduğunu. Heç bilməzdim ki, bu həddə darıxacam. Burada hara gedirəmsə, şəhərlərdə, meşələrdə, kəndlərdə, çaylarda həmin ərazilərin bəzi yerlərini vətənin hansısa guşəsinə oxşatmağa çalışıram..."

**Hollandiyada yaşayan siyasi mühacir Eldəniz Yusibov** isə yaxın zamanda müharibənin olmayacağını söylədi: "Mən vaxtı ilə Qarabağ döyüşlərinin iştirakçısı olmuşam. Torpaqlarımızın azad edilməsi üçün cəbhəyə getməyə də hazıram. Ancaq reallıq budur ki, mövcud iqtidar heç zaman müharibə etməyəcək. Görünən kəndə nə bələdçi?! 2003-cü ildə hakimiyyətin qarşısında qoyulan ilk şərtlərdən biri müharibə etməyəcəyi ilə bağlı olub. Xarici dövlətlər Azərbaycana böyük sərmayə yatırıblar, bu sərmayənin batmaması üçün əllərindən gələni edəcəklər ki, müharibə olmasın. Ümumiyyətlə, Qarabağın azadlığı azad, ədalətli seçkilərdən, demokratik bir cəmiyyətin qurulmasından keçir".

**Son günlərin ağırlığını hələ də yaşadığını deyən, mühacir gənclərin şəhid olmasından çox təsirləndiyini bildirdi:** "Özümü çox pis hiss edirəm. Bu gənclərin günahı nədir? Ordudakı özbaşınalıqlar nəticəsində çox sayda əsgərimizin ölməsi, bunun üçün məsul olan şəxslərin cəzasız qalması, əvəzində mükafatlandırılması çox utancverici bir haldır".

**Müharibə olarsa öz oğullarını buraya göndərib-göndərməyəcəyini xəbər aldıqda E.Yusibov dedi:** "Olmayacaq müharibəyə mən oğullarımı necə göndərim?"

**Oğullarının hələ hərbi xidmətdə olmadığını deyən, mühacir bunun səbəbini bildirdi:** "Mənim oğlanlarımın heç biri hərbi xidmətdə olmayıb. Çünki onlar bura gələndə 12-13 yaşları olub".

"Həyatımın ən gözəl illərini cəbhədə keçirtmişəm və əlbəttə ki, hər zaman ön cəbhədə olmağa hazıram" - deyən siyasi mühacir İlham Həsən isə vətən torpaqlarının geri qaytarılacağına hələ də ümidli olduğunu bildirdi: "Amma güvənimi itirmiş, vətənə xəyanət etmiş "generalların" əmrində heç bir cəbhəyə getmərəm. Çünki bunun acı nəticəsini bir dəfə görmüşəm. Bir şeyi də sizə xatırladım ki, Azərbaycanın ilk könüllü alaylarından birinin qurucusu və Azərbaycan Milli Ordusunun qurucularından biri kimi, vətəndən uzaq olsam da, daim işğal olunmuş torpaqlarımızın hansı yolla olur, olsun geri qaytarılması düşüncəsi ilə yaşayıram. İndiki rejimin müharibə edəcəyinə inanmaq absurddur. Eyni zamanda apardıqları danışıqların vaxt uzatmaqdan başqa bir şey olmadığı üçün ciddi nəticə verəcəyinə inanmıram. Hələ 1995-ci ildə də eyni fikirləri səsləndirmişəm. Torpaqların azadlığı, vətənin müstəqilliyi, xalqın rifahı milli demokratik dövlətçilikdən keçir. Bunun həqiqətən istəyən bütün soydaşlarımız aktiv mübarizə aparmalıdır".

**Mühacir-jurnalist Fikrət Hüseynli:** "Mən 1993-98-ci illərdə jurnalist kimi əsasən hərbi redaksiyalarda çalışmışam. Bu zaman içində Azərbaycanın bütün cəbhə bölgələrində olmuşam. Bir neçə yerdə günlərlə, bəzən də həftələrlə qalmışam. 1997-ci ildə atəşkəs pozulanda Qazağın Quşçu Ayrım, Bala Cəfərli, Tovuzun Ağdam, Əlibəyli kəndlərində günlərlə qalıb reportaj hazırlamışam. Yəni, bu prosesi yaşamışam və birmənalı olaraq başa düşmüşəm ki, ölkəmizin inkişafı, demokratikləşməsi üçün onun ərazi bütövlüyü lazımdır. Ən azı ona görə ki, hakimiyyət ölkədəki vəziyyəti düzəltməkdən imtina edərək - "Bizim Qarabağ kimi dərdimiz var"-deyə bilməsin. Konkret indiki vəziyyətə gələndə, bəli, mənim mühacirətimin səbəbkarı indiki iqtidardır. Bu iqtidar məni didərgin salmaqla həm də öz ölkəmdə illərlə oxuduğum universitet diplomunu, artıq özümü təsdiq etdiyim jurnalistika sahəsindəki uğurlarımı, bir sözlə, həyatımı alt-üst edib. 1988-ci ildə Ermənistandan qovulmuşuq və doğulduğum kəndə gedə bilmirəm. Artıq altı ildir ki, böyüdüyüm doğma ölkəmə ayaq basmağım mümkünsüzdür. Amma bunun günahkarı Azərbaycan torpağı yox, ölkəni idarə edən bəzi insanlardır. Vətənimiz müqəddəsdir və onu qorumaq hər birimizin borcudur. Doğrudur, hazırda mən başqa dövlətin vətəndaşıyam. Bu üzdən bəzi hüquqi məqamlar mövcuddur. Bununla belə, əgər Azərbaycanda həqiqi vətən müharibəsi başlayarsa, repressiyalara son qoyulub ölkəmizin ərazi bütövlüyü uğurunda savaşa qərar verilərsə, mən vətəndə olacağam. Biz savaşımız zatən bütöv və demokratik Azərbaycan qurub gələcək nəsillərə ötürmək üçündür. Bu yolda da vətənə gəlmək lazım olsa, düşünmədən o addımı ataram".

**❑ Fəridə ABDIYEVA**

YENİ MÜSAVAT
N 200 (5909) 11 avqust 2014

**Təsəvvür edin ki, sizi katorqaya göndərirlər, ya da Ağcaqum düzünə və yaxud Quantanamoya... Heç bir fərq etməz - oradakı cəhənnəm əzabı ilə Bakı-Astara qatarındakı vəziyyət bir-birinə mütənasibdir. Çox uzağa getməyə gərək də yox, qonşu İranda, Türkiyədə qatarlar ildırım sürəti ilə hərəkət edir, salonlar, kupelər müasirləşdirilib, yeni vaqonlar, lüks şərait, səliqə-sahman və... qısa vaxtda mənzil başına çatırsan.**

**Avropa və dünyanın inkişafda olan ölkələrini nümunə gətirməyə zərurət yoxdur. Təkcə qonşu ölkələrə baxanda yetərli olur ki, Qafqazın lider dövlətində sərnişin qatarları nə gündədir. Bakı-Astara qatarı isə cəhənnəmin tən ortasıdır. Elə bir iyrənc mənzərə var ki, bir minən ikinci dəfə bu qatarı seçməz.**

Vaqonlardakı dözülməz şəraitsizlik, səliqəsizlik, üfunət iyi, natəmizlik yay-qış hökm sürür. Hələ bu nədir ki, siz olduğunuz kupe və ya plaskartda həşəratlar, böcəklər, cücülər, tarakanlarla yan-yana getsəniz təəccüblənməyin. Onlar Bakı-Astara qatarının daimi "sərnişin"ləridir.

Hərçənd, ölkənin şimal-qərb istiqamətinə yeni qatarlar hərəkət edir. Cənub zonası marşrutunda isə hələ də Xruşşov dövründən qalma vaqonlar istifadədədir.

Şimal-qərb bölgəsinə hərəkət edən qatarların vaqonları çox təmiz, səliqəli, komfort, genişdir. Ancaq nədənsə Bakı-Astara qatarını yeni vaqonlarla təchiz etmək istəmirlər. Bu istiqamətdə tam bir fəlakət yaşanır; havasızlıq, köhnə oturacaqlar, natəmiz tualet, darısqallıq, tarakanların gəzintisi sərnişinlərə işgəncə verir.

**Son səfərimdə yaşadıqlarımızı təsvir etmək mümkün deyil. Tualeti, perronu bərbad vəziyyətdə, döşək üzləri saralmış, soluxmuş... həşəratlar da ki, yan-yörədə gəzişir. Hətta bunlar bir yana, qatar 350-400 kilometrlik yolu təxminən 9-10 saata gedir. Bu müddətə Avropanın şərqindən qərbinə gedirlər.**

***

Əslində bir neçə il əvvələ qədər bu istiqamətə elektrik qatarları hərəkət edirdi. Xatırlayırsınızsa sərnişinlər də çox məmnun idilər. Bu sətirlərin müəllifi də dəfələrlə həmin elektrik qatarı ilə yola düşüb. İçərisi təmiz, oturacaqlar yeni idi, sərnişinlər üçün televizor qoyulmuşdu, çay və şirniyyat verilirdi. İnsafən, hələ belə qatar görünməmişdi. Üstəlik, 6 saata Bakıdan Lənkərana, yarım saat sonra isə Astaraya çatmaq olurdu.

Çox təəssüflər ki, elektrik qatarını tələbat azlığı adı ilə ləğv etdilər. Halbuki tələbat böyük idi. Əvəzində isə köhnə-küşkül, pəncərələri bağlı, sürgünə göndərilən dustaqların aparıldığı bir qatarın ümidinə qaldı sərnişinlər. Hələ bu bərbad şəraitin qarşılığında kupeyə bilet 7 manatdır. Bircə sevindirici hal odur

# Arif Əsgərovun "korrupsiya qatarı"nda tarakanlar yuvası...

## Dövlət büdcəsindən yeni vaqonların alınmasına ayrılan vəsaitlər çırpışdırılıb, Dəmir Yol İdarəsi rəisinin əmri havaya gedib; Bakı-Astara qatarında rüsvayçılıqdır...









ki, qatarın hərəkət sürəti artdıqca kondisioner işlək vəziyyətə gəlir. Qatar da tərpənənə qədər havasızlıqdan sərnişinlər boğulmaq həddinə çatırlar.

"İstər metro qatarı olsun, istərsə də dəmiryol qatarı. Mən hələ içi üfunət iyi verən, divarlarında, döşəklərində, tavanında tarakanlar, böcəklər gəzişən qatara rast gəlməmişdim. Bu vəziyyətdə olan kupedə yatmaq mümkün deyil. Səhərə qədər oyaq qalmalısan. Bəs bu qədər pullar hara gedir? Necə olur ki, hər şeyə pul xərcləyirlər, 10-15 təzə vaqon gətirmirlər. İndi hansı dövrdür ki, belə vaqonda gedəsən. Avropada qatarlarda "vi-fi" internet sistemi quraşdırılıb, sərnişinlərin rahatlığı üçün hər şərait var. Biz orta əsrlərdə qalmışıq," - deyə qonşu kupenin sərnişini bizimlə söhbətində şikayətlənir.

Onun sözlərinə görə, kupelərdə balaca uşaqlar dözülməz havasızlıqdan ağlayırlar: "Gürcüstanda belə qatarlar ola bilməz. Bu nə biabırçılıqdır? Bunun adı işgəncədir, vallah. Belə vaqonlar xətdən çıxarılmalıdır, onları söküb satsınlar. Ən adi problemdir bunu həll etmək. Təzə vaqonlar almaq üçün Azərbaycanın pulu var".

**Digər sərnişinlər də bir ağızdan şikayətlənirlər. Ancaq onların bu giley-güzarını yalnız bələdçi eşidə bilir ki, onun da nə bir səlahiyyəti, nə də şəraiti dəyişmək imkanı var. Beləcə sərnişinlər 9 saat həşəratların yuva saldığı qatarda getməyə məhkumdurlar. Bələdçi sərnişinlərə çay təklif etsə də, bu şəraitdə adam çay içməyə də iyrənir.**

Qeyd edək ki, dövlət büdcəsindən son illərdə bu sahəyə 800 milyon manata yaxın vəsait (1 milyard dollar) ayrılıb. İnfrastrukturun, texnikanın bu cür bərbad durumda olması irimiqyaslı yeyintilərin olduğuna əminlik yaradır.

Xaricdən yeni adı ilə alınan vaqon və teplovozlar əslində köhnədir. "Azərbaycan Dövlət Dəmir Yolları" QSC-nin rəhbərliyi onları yeni adı altında sənədləşdirərək külli miqdarda vəsaiti öz büdcələrinə daxil edir.

QSC rəhbəri Arif Əsgərov bir müddət əvvəl "Azərbaycanda dəmir yolu nəqliyyatı sisteminin bütün sahələrinin müasirləşdirilməsi" haqqında əmr imzalayıb.

**Əmrə əsasən, vaqon-lokomotiv parkı tam yenilənməli, hərəkətin idarə edilməsi üçün müasir avadanlıqlar alınmalıdır. Görünür, özləri üçün şəxsi qatarlar alıblar. Əsas onların rahatlığıdır, sərnişinlər bir az da gözləyə, bir müddət də tarakanlarla bir yerdə gedə bilərlər...**

❑ **E.SALAMOĞLU**

**Fotolar müəllifindir**

# Süddən çıxmış ağ qaşıq...



**Sevinc TELMANQIZI**
**s.qurbanova@gmail.com**

**İyulun sonu, avqustun əvvəli... Orduda və ölkə daxilində atəşkəs rəsmən pozulub. Az qala hər günə bir neçə şəhid və bir həbs. Bilmirik, ölülərimizin dərdinə qalaq, ya ölkədəki vicdanlı insanların bir-bir "dənlənməsinə". Hansına dəsmal götürüb ağlayaq, bəlli deyil. Az qala saatbaşı internetə girib, "görəsən bu gün neçə nəfər şəhid olub, neçə nəfər tutulub" narahatçılığını keçiririk. Dözülməz şəraiti təsəvvür edin: birini ermənilər tələf edir, o birini özümüzünkülər... Düşmənin kimliyini müəyyənləşdirməkdə çətinlik çəkirsən istər-istəməz...**

Bu dəfə hədəf ictimai sektordur. Biçə-biçə gedirlər. Və bu məqamda yenə özünü demokratik düşərgənin nümayəndəsi sayanlardan səbəbi bilinməyən, amma hər halı ilə hökuməti dəstəkləyən reaksiyalar gəldi. Birini vəkil Aslan İsmayılov verdi. Dedi ki, bəs niyə bu QHT-lər yoxlamanın ilk günündən bu barədə açıqlama vermirmişlər. Bəs sən demə, günahın bir qismi də elə QHT-lərin özündə imiş. Sitatı olduğu kimi yazıram: "Niyə birinci gündən başlayan yoxlamalar barədə həmin QHT rəhbərləri cəmiyyəti xəbərdar etmirlər, aldıqları qrantlar, ödədikləri vergilər, gördükləri işlər barədə cəmiyyəti məlumatlandırmırlar? Hesab edirəm ki, deyilənlər olsaydı cəmiyyət də baş verənlərə belə susqun münasibət bildirməzdi. Bir çoxları fikirləşir ki, qrant alanların "günahı olmasa" susmazdılar".

Bunun adına el dilində yanan ocağa benzin tökmək deyirlər. Hüquq ədəbiyyatlarındakı termini Aslan bəy özü tapsın. "Şedevr" aşağıdakı kimi davam edir: "Mənə qarşı olan basqıları sevinclə qarşılayan, ancaq qısqanclıqdan haqqımda "o hakimiyyətə işləyir", "ancaq pulluları müdafiə edir" və digər böhtanları yayan intiqam əliyevlərə, ənnağı hacıbəylilərə və onlara züy tutanlara deyirəm ki, mənə qarşı olan hər qanunsuzluğu cəmiyyətə bildirmişəm, bütün varlığımla mübarizə aparmışam və sizlərin də haqları uğrunda mübarizə aparmağa həmişə kimi bu gün də hazıram".

Aydın məsələdir ki, bu söhbət həmkarlar arasındakı fikir ayrılığının, hansısa problemin nəticəsidir. Aralarında nə zamansa dartışma olub və dar məqamda da... qurşaqdan aşağı zərbə işə düşüb. İctimai sektorun çökdürüldüyü, insanların haqsız yerə şərlənib tutulduğu bir zamanda köhnə ədavətləri yada salıb, orta məktəb şagirdi tövrü ilə "əcccəb oldu sizə, məni söyəndə yaxşı idi?" deməyin yeri varmı? Lənət şeytana, hökumətə işləmək başqa necə olur ki? Bu cür məqamlarda şəxsi intriqaları "delete" etmək lazım deyilmi? Yaxşı, azadlığa çıxanda yenidən aktivləşdirərsiz davanı. Qaldığınız yerdən davam necə deyərlər...

Tutaq ki, "Aslan İsmayılov ancaq pulluları müdafiə edir" deyilib... Bunda həqiqət payı yoxmu? Son illər həbs edilən hansı siyasi məhbusun işində görünüb hörmətli vəkil? İctimai fəalların əli çıraqlı vəkil axtardığı, az qala bir vəkilin payına 10 siyasi məhbusun düşdüyü bir zamanda Aslan bəy bir zəhmət, yaxasını kənara çəkmənin açıqlamasını verə bilərmi? "Sizlərin haqları uğrunda mübarizə aparmağa hazıram"... Hə, mən də Marsa səyahət edib, Yer kürəsini qlobal istiləşmə bəlasından xilas edəcəm... İnandız?

Hörmətli vəkil iddia edir ki, yoxlama başlayan kimi mediaya məlumat verilsə, QHT-lər vergiləri, qrantları ilə bağlı cəmiyyətə hesabat versə, cəmiyyət indi belə susqun olmazdı. Aslan bəyə "məni həbs edəcəklər, həbsimə hazırlıq gedir, məni izləyirlər" deyən onlarla fəalın açıqlamasını xatırlada bilərəm ki, heç birinin həbsi minlərlə insanı küçəyə çıxarmadı, onların aktiv müdafiəsinə səbəb olmadı. Doğrudanmı etiraz, müdafiə edən kəsimin bir ovuc qaldığının fərqində deyilsiz? Məsələn, srağagün Tofiq Yaqublu məhbusları müdafiə edirdi, dünən Leyla Yunus Tofiq bəyin müdafiəsinə qoşuldu, Leyla xanımı tutdular, İntiqam bəy onu müdafiəyə başladı və onu da tutdular... Beləcə, dar bir həlqə... Hesabat, vergi tələb edənsizsə, hökumətin yaxasından yapışın, cibinizə girən əlləri tutub ifşa edin. Vətəndaşın halal haqqı olan hansı nəsnədən yararlana bildiyinin siyahısını hazırlayın... QHT-çilərin qrantlarına gələnə qədər. Bu həbslərin vergi-hesabat ucbatından baş tutmadığını biləcək qədər dünyagörmüş hesab edirik Aslan vəkili.

Qəribə bir tendensiya yaradıblar. Jurnalist həbs olunur, damğaları hazırdır: dillərini dinc qoyaydılar, tutulmayaydılar. Hüquq müdafiəçisi həbs edilir, "arqumentlər" havada uçuşur: o boyda pul yeyiblər, niyə yoxlama aparılanda cəmiyyətə xəbər verməyiblər? Facebook fəalı belə, mitinqə çıxanı elə... Onlar da başlarını aşağı salıb, hökumətlə hökumətlik etməməliymişlər. Hərənin bir "suçu" var bunların gözündə. Bir bunlardır süddən çıxmış ağ qaşıq...

Birinci daşı günahı olmayan atsın... Gözləyirik...



## TƏBRİK

**İzzət balanı 12 yaşının tamam olması münasibətilə atası Şəmsi, anası Baharxanım, bacıları Vüsalə, Mənzər, Fidan və qardaşı Şahin təbrik edir, ona cansağlığı, xoşbəxt gələcək arzu edirlər.**



## Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

*< Kiyev Dövlət Texniki Universiteti*
*< Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
*< Kremençuk Dövlət Universiteti*
*< Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
*< Kiyev Dövlət Dəniz Akademiyası*
*< Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
*< Tbilisi Dövlət Tibb Universiteti*
*< Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
*< Minsk Dövlət Universiteti*
*< Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
*< Qrodno Dövlət Universiteti*
*< Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
*< Volqoqrad Dövlət Aqrar Universiteti.*
*< Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A «Nərimanov» m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

## Elan

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**

## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**


# 7 uşaq anası imkanlılara və dövlətə səsləndi

## Zemfira Məmmədova: "Ev o qədər balacadır ki, uşaqlar eyni vaxtda süfrə arxasına otura bilmirlər"

**Paytaxtın Yeni Günəşli qəsəbəsində yaşayan 7 uşaq anası Zemfira Məmmədova yaşam şəraitinin acınacaqlı vəziyyətdə olmasından şikayət edir. Ailə başçısı maddi sıxıntılar məngənəsində olduğu bir vaxtda heç bir dövlət qurumundan dəstək ala bilmir. İşsiz vəziyyətdə olan valideynlər uşaqları normal qida və geyimlə də təmin etmək imkanından məhrumdurlar.**

Ailənin maddi durumunu və ehtiyaclarını öyrənmək üçün musavat.com-un əməkdaşı onların evinə baş çəkib.

Bağırovlar ailəsinin yaşadığı tək otaqlı, kiçik mənzilə daxil olan kimi xoşbəxt bir ailə tablosunun şahidi oluruq. Evdə bizi ailə başçısı Vahid Bağırov, xanımı Zemfira Məmmədova və 7 uşaq qarşılayır: Fikrət, Sara, Səma, Səbinə, Sevinc və əkiz sonbeşiklər Ərəstunla Şahin.

### "Bir süfrə arxasına otura bilmirik"

Uşaqlardan ən böyüyü 14, ən kiçiyi olan əkizlər isə 1 yaşındadırlar. Ailənin xoşbəxt həyatına yaşadıqları maddi sıxıntılar kölgə salır.

9 nəfərdən ibarət ailə 24 kvadratmetrlik bir otaqda yaşayır. Burada 7 uşağın rahat hərəkət etməsi üçün 1 metr belə yer yoxdur. Vəziyyət o yerə çatıb ki, uşaqlar eyni vaxtda süfrə arxasına otura bilmir, növbə ilə yemək yeməli olurlar.

Evdə paltar şkafı olmadığından Zemfira xanım uşaqların paltarlarını sellofan torbalarda üst-üstə qalaqlayıb. Evin hər tərəfini uşaqların yataqları tutduğundan otaqda hərəkət etmək mümkün deyil.

Bağırovlar hər an bu evdən də məhrum qala bilərlər. Özlərinin olmadığına görə, onların bu mənzildən çıxarılma ehtimalı var.

### "Bizə nə cavab gəlir, nə də yardım"

Evin xanımı Zemfira Məmmədova evdar qadındır. Ailənin yeganə gəlir mənbəyi, 15-20 manata günəmuzd fəhlə işləyən ailə başçısı Vahid Bağırovdur. Onun qazancı isə nə uşaqların yeməyinə, nə də geyiminə bəs edir.

Zemfira Məmmədovanı ən çox narahat edən bu darısqallıqda böyüyən uşaqların sağlamlıqlarını itirmə ehtimalıdır: "Evimiz çox darısqaldır. Uşaqlar rahat hərəkət edə bilmir. Bütün əşyalar bir-birinə qarışıb. Səliqə - sahman da yarada bilmirəm. Qapı -pəncərənin şüşələri sınıb, uşaqlar tez-tez xəstələnirlər. Çıxılmaz vəziyyətdəyəm."

**Vahid Bağırov da vəziyyətinin acınacaqlı olduğunu, günəmuzd işləməklə çörəkpulunu belə çatdıra bilmədiyini deyir:** "Gördüyünüz kimi acınacaqlı vəziyyətdir. Bir otaqlı mənzildə yeddi uşaq böyüdürük. Şəraitimiz pisdir. Gündə 15-20 manatla mən necə ev ala bilərəm? Bütün dövlət qurumlarına müraciət etmişəm. Ancaq heç birindən cavab gəlməyib."



### "Evdə dərs hazırlamağa yer yoxdur"

Uşaqlardan üçü məktəblidir. Fikrət, Sara, Səma həmyaşıdları kimi geyinə bilmədikləri üçün hər gün analarına şikayət edirlər. Yeni dərs ilinin başlamasına az qalsa da, onların nə məktəbli formaları, nə də bunu almağa imkanları var. 6 yaşlı Səbinə isə, bütün yaşıdları kimi məktəbə getməyi arzulayırdı. Lakin Zemfira xanım deyir ki, imkan olmadığı üçün onu bu il məktəbə göndərə bilməyəcək. Məktəbin xərcləri bir tərəfə qalsın, uşaqlar üçün evdə dərs hazırlamağa da yer yoxdur.



Bağırovlar ailəsi indi həm dövlətdən, həm də xeyirxah insanlardan yardım istəyir, birinci istəkləri isə geniş, işıqlı bir mənzillərinin olmasıdır: "Uşaqlardan dördü məktəbə gedir. Biri də bu il getməli idi. İmkansızlıqdan məktəbə yazdıra bilmədim. Birinin ayaqqabısı, birinin məktəbli forması yoxdur. Bizə yardım etsinlər. Dövlətdən və imkanlı şəxslərdən yardım istəyirəm. Geniş, işıqlı bir evim olsa, orada yeddi vətəndaş böyüdərəm bu dövlət üçün."



### 9 nəfər bir avtobusa minəndə...

Ailənin böyük oğlu Fikrətin də öz arzuları var. Maddi durumu çətin olan ailə ona hələ də kompüter ala bilməyib: "Bizə ev lazımdır, maşın lazımdır. 9 nəfər bir yerdə avtobusa minə bilmirik. Dərslərimizi rahat oxuya bilmirik. Kompüterimiz yoxdur. Biz də oxuyub inkişaf etmək istəyirik."

**7 uşaq anası deyir ki, Suraxanı rayonunun icra başçısına müraciət etsələr də, onlardan nəinki yardım, bir cavab belə ala bilməyiblər:** "Suraxanı rayon icra hakimiyyətinə, Prezident Aparatına, Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə müraciət etmişəm. Ancaq hələ ki, cavab gəlməyib. Bizə dəfələrlə söz veriblər ki, nə lazımdırsa edəcəyik, ancaq indiyə qədər heç nə etməyiblər."

Bağırovlar ailəsi ayda 300 manat sosial müavinət alır. Ancaq 9 nəfərlik ailə üçün bu məbləğ bir neçə günün xərcliyi deməkdir.

### "Onlara ev və avtomobil verilməlidir"

**Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu** da, bu cür ailələrin mənzillə təmin olunmasının vacibliyindən danışıb: "Bütün dövlətlərdə çoxuşaqlı ailələrə xüsusi güzəştlər olunur, mənzil və avtomobil verilir. Onlara hazır tikilmiş, geniş həyətyanı sahəsi olan ev verilməlidir. 7 uşaqlı ailə rahat hərəkət edə bilmələri üçün mikroavtobus tipli avtomobillə təmin edilməlidir. Bu vəziyyəti ictimailəşdirmək lazımdır. Müxtəlif KİV-lərdə bu haqda yazılmalıdır. Biz də əlimizdən gəldiyi qədər hüquqi dəstək göstərə bilərik. Əgər bir ananın 7 uşağı varsa, o, bütün imtiyazlardan istifadə edə bilməlidir" .

Sonda onu qeyd edək ki, bu ailədə dövlətimizə 7 vətəndaş böyüyür, onlardan üçü gələcəyin əsgərləridir. Bu uşaqların sağlamlığı da, gələcəyi də dövlətdən və imkanlı insanlardan asılıdır.

**Yardım etmək istəyənlər üçün ailənin ünvanını təqdim edirik: Yeni Günəşli qəsəbəsi, AB massivi, bina 72, mənzil 22.**

**❑ Nərgiz Liftiyeva,**
**Fotolar müəllifindir**

# Nabranda dənizə sərxoş girən kişi öldü

**Xaçmaz rayonunun Nabran qəsəbəsində 1979-cu il təvəllüdlü Ruslan Ağayar oğlu Quliyev sərxoş halda dənizdə çimərkən batıb. APA-nın Fövqəladə Hallar Nazirliyinin (FHN) saytına istinadən verdiyi xəbərə görə, bədbəxt hadisə "Nabran" sularda xilasetmə məntəqəsindən, təxminən 7 km məsafədə, nəzarət olunmayan ərazidə baş verib.**

R.Quliyevin cəsədi Fövqəladə Hallar Nazirliyinin dalğıc-xilasedicilər tərəfindən batdığı yerdən 400 metr aralıda tapılaraq sudan çıxarılıb və aidiyyəti üzrə təhvil verilib.







YENİ MÜSAVAT
N 200 (5909) 11 avqust 2014

# O biri dünyanı görüb gələnlər

## Bir neçə dəfə ölüb-dirilənlərin ilginc hekayələri “Yeni Müsavat”da...

**“O dünyanı görüb gəldim”... İşimiz dara düşəndə, çox çətin bir mərhələni geridə qoyanda adətən bu sözlərdən istifadə edirik. Yaşamış olduqlarımızın ağır yükü və keçdiyimiz çətin mərhələni dediyim formada dilə gətiririk. Amma tibb dünyası sözün həqiqi mənasında “o dünyanı görüb gələnlər”i təsbit edib. Kimi bir neçə saniyə, kimi isə hətta dəqiqə ötən zaman kəsiyində olumla ölüm arasında sıxılıb qalıb. Bu şəxslərin ilginc hekayəsi, yaşadıqları ilə bağlı maraqlı hekayəni sizlərə təqdim edirik.**

**Ürəyi 5 dəfə dayananı da var, şimşək vuranı da...**

Siyahını türklərlə başlayaq. Türkiyənin Dənizli şəhəri sakini Halil Karacanın ürəyi əməliyyat zamanı 5 dəfə dayanıb, sonra yenidən işə düşüb. Və bu, müddət ərzində yaşadıqlarını belə ifadə edib: “Özümü çöldə gəzirmiş kimi hiss etdim. Ucsuz-bucaqsız, ağappaq bir yer idi. Sanki çölə qar yağmışdı. Bir şey görmək, bir şey eşitmək istədim, amma yox idi”.

Tiffani Snounun hekayəsi isə daha da qəribədir. Şimşək vurduğu üçün öldüyü təxmin edilən qadın komadan sonra yeni həyatına başlayıb. Və bu zaman o, yeni həyatındakı vəzifələrinin də fərqinə varıb. Ona insanları yaxşılaşdırmaq və onları Allaha inandırmaq kimi bir missiya verilmişdi. Qadının koma hekayəsi də maraqlıdır. Yayın ortasında Kaliforniyada külək əsməyə başlayıb. Yaylada atları yoxlamağa çıxdığı zaman onu şimşək vurub. Qadın dünyanın qaraldığını, ondan sonra isə heç nə xatırlamadığını deyib. Birdən özünü havada asılı, kainatı izləyəndə fərq edib.

Tiffani yaşadığı təcrübənin kiçik bir qismini danışıb: “Ətrafımda rəngarəng ulduzlar var idi. Birdən başın döndü, qabağımı görə bilmirdim. Suyun üzərində üzən biri vardı. Mənə dedi ki, qorxma. Ətrafımız sarımtıl bir işıqla əhatə olundu. Bir-birimizə yaxınlaşdıqca içimdə qabaran sevgini hiss etdim. İçi və çox rahatladan bir duyğu idi. Ailəsi tərəfindən qucaqlanan bir körpə kimi idim. O işıqdan hələ də uzaqda idim, amma bilirdim ki, o, Allahdır, bura da cənnətdir”.

Allahın onunla danışdığını iddia edən qadın həyata geri qayıdanda missiyasının fərqinə vararaq etməli olduqlarını həyata keçirmişdi. Yaşadığı təcrübə ilə bağlı 3 ədəd kitab yazıb.

**Bədəni suyun üstündə üzüb və ağ işıq görüb...**

“O biri dünyanın digər qonağı” isə Meri Co Rapindir. 2003-cü ildə beynində damar genişlənməsi yaşayan Meri yaşadıqları barədə belə danışır: “Komada ikən çəhrayı bir işıltı mənə dedi ki, geri qayıtmaq lazımdır. Birdən özümü o işığın içində tapdım, çox gözəl bir yer idi. Dünyada qarşılaşdığım tipdə bir atmosfer və ya hiss deyildi. Bu səbəbdən də yaşadıqlarımı ifadə etməkdə çətinlik çəkirəm. Dünyada dadmadığımız bir hissdir. İndi o atmosferlə bağlı necə açıqlama verəcəyimi bilməsəm də, orda ikən hər şeyin bir açıqlaması, bir mənası vardı. Sanki həyatımda heç görmədiyim qədər parlaq və həqiqi bir röya idi”.

Rapini yaşadıqlarının elmi yollarla açıqlanmağa çalışmasına qarşı çıxır. Araşdırmaçılar bunun röya olduğunu desə də, o, bunun yuxu olmadığını iddia edir.

Bob Voodruffun hekayəsinə gəlincə, burda da maraqlı detallar var. Bob Voodruff 2006-cı ildə İraqda ağır bir şəkildə yaralanıb. Maşını partlayıcı ilə toqquşduğu üçün ölümün bir addımlığına gəlib. Voodruff da deyib ki, komada olanda bədəni suyun üstündə üzürmüş və özü də ağappaq bir işıq görüb.







**“O dünyada gördüklərim bizim planetimizdə mövcud olan heç nəyə bənzəmirdilər”**







**Reverend adlı amerikalı o biri dünyada elə bir qoxu duyub ki....**

Reverend Don Piper adlı amerikalıya keçək. O, Kaliforniyada maşını ilə gəzəndə 18 təkərli bir yük maşını ilə toqquşub. Hadisə yerinə gələn Təcili Yardım xidmətinin işçiləri onun öldüyünü açıqlayıblar. 90 dəqiqə boyunca nəbzi dayanan Piperin həyata qayıtması az qala möcüzə olub. Təsəvvür edin ki, maşınlar toqquşanda hələ də fırlanmaqda olan təkərlər Piperin sinəsinə dəyib, arabanın tavanı isə başına düşüb. Piper iddia edir ki, koma müddəti onun üçün ölüm sonrası həyat kimidir. Gözəl bir musiqi və qoxuların müşayiəti ilə qarşılandığını iddia edən Piperin sözlərinə görə, yer üzündə nə bu musiqinin, nə də bu qoxuların tayı-bərabəri yoxdur. Hətta dediyinə görə, vəfat etmiş babası onu qapıda qarşılayıb, ölmüş tanışlarından bir neçəsi onunla görüşüb.

“Həqiqi həyat işıqları burada parıldayırdı” deyən Piper hadisədən sonra dəfələrlə əməliyyat keçirib, yenidən yeriyə bilmək üçün çox əziyyət çəkib. Yaşadıqlarını isə “90 Minutes in Heaven: A True Story of Death and Life” adlı müəllifi olduğu kitabdan oxuya bilərsiz. “Nyu York Tayms” qəzetinin ən yaxşı satılan kitablar siyahısında 4-cü yeri tutan bu kitabda Piper bildirib ki, Allahın onu geri göndərməsinin səbəbi cənnətin həqiqətən də var olduğunu insanlara danışması olub.

**Tibb bacısını mələklər geri göndərəndə təsəlli veriblər**

Kolton Burpo isə ölümün kandarından düz 2 dəfə geri qayıdıb. 4 yaşında və 17 yaşında. “Heaven is for Real” adlı kitabı yayımlanan Erin Smith silahla vurularaq ölümün bir addımlığına gəlib. Ölümdən sonra yaşamı dadan Burpo yaşadığı təcrübə barədə kitabında detallı yazıb.

Ceyn Seymour həddən ziyadə hissiyyatlı olduğu üçün komaya girib. İlk anda böyük bir işığın içinə girən Seymour bizdən daha üstün bir mənəvi varlıq olduğunu deyir. Üstəlik, Seymour hər hansı bir din mənsubu da deyil.

Josiane Antonettenin hekayəsində isə daha maraqlı məqamlar var. Fransada dünyaya gəlmiş tibb bacısı daim ölülərlə, xəstələrlə iç-içə idi. Məktəblərdə də müəllimlik, mənəvi məsləhətçi və xor rəhbərliyi vəzifəsini həyata keçirib. Hardasa uşaq deyiləcək bir yaşda keçirdiyi bir qəza nəticəsində o biri dünya ilə əlaqə qura bilən Josiane deyir ki, komada ikən gördüyü işıqlar bizim xəyalımızdakı mələklərlə təxminən eynidir. Onun sözlərinə görə, hüzuru, müstəqilliyi, sevgini sözün böyük mənasında koma müddətində yaşayıb. Josiane iddia edir ki, mələklər onu göndərəndə təsəlli ediblər, hər zaman yanında olacaqlarını deyəndən sonra yenidən yerə qaytarıblar.

**“O dünyada gördüklərim bizim planetimizdə mövcud olan heç nəyə bənzəmirdilər”**

Uzun müddət Harvard Universitetində dərs keçən və ela neyrocərrah imici qazanmış doktor Eben Aleksandr özünü xristian hesab etsə də, heç vaxt axirətə inanmayıb və hətta bizi haradasa hədsiz dərəcədə sevən Allahın olduğuna inananların halına yanıb. “Mən neyrocərrah kimi ”bədəndən kənar təcrübə" fenomeninə inanmırdım. Elmi mühitdə böyümüşəm, neyrocərrahın oğluyam. Atamın yolunu davam etdirərək akademik və neyrocərrah olmuşam, Harvard Tibb Məktəbində və başqa universitetlərdə dərs demişəm. Mən insanın ölüm ayağında olduğu zaman beyində nə baş verdiyini anlayıram, ona görə də həmişə hesab etmişəm ki, ölümdən möcüzə olaraq qurtulan insanların təsvir etdikləri bədəndən kənar səyahətin ağıllı elmi izahı mövcuddur", - o əvvəlcə bildirib.

Lakin 2008-ci ilin payızında onun özünün komaya düşməsindən sonra hər şey dəyişib. Məhz o zaman Aleksandr bir həftə ölümlə həyat arasında olub, onun fikirlərə və emosiyalara cavab verən beyin qabığı fəaliyyətini dayandırıb. Tanınmış cərrahın sözlərinə görə, o özü isə axirət dünyasına, eləcə də cənnətə səyahət edib.

“Beyin və ağlın hazırkı tibbi anlayışına uyğun olaraq komaya düşdüyüm zaman heç olmasa məhdud şüurda olmalı idim, onun çox parlaq və bütöv səyahət etməsi sadəcə, mümkün deyil. Bədənimin komada olmasına baxmayaraq, məndə beyin qabığının fəaliyyəti dayandığı təqdirdə beynin özünün işləməkdə davam etməsinin, mövcudluğuna heç vaxt inanmadığım ölçücə daha böyük kainata yola düşməsinin heç bir elmi izahı yoxdur”, - neyrocərrah deyib.

Həkim qeyd edir ki, bütövlükdə onun baş çəkdiyi mistik məkan kliniki ölüm və ya başqa sərhəd vəziyyətlərini yaşamış insanların çoxsaylı təsvirlərinə oxşayırdı. Onun sözlərinə görə, həmin yer hərfən bizim daha çox olduğumuz, yalnız bədənimizin və beynimizin deyil, həm də ölümün şüurlu mövcudluğunun sonu yox, yalnız sonsuz səyahətin bir hissəsi olduğu yeni dünyanı təşkil edir.

Həkim bu qəribə dünyanın necə göründüyünü təsvir edə bilib. O danışır ki, səyahəti buxara çevrilərək buludlarda yüksəyə qalxmasından və tezliklə “səmada uçan, sayrışan və dalınca xəttə oxşar uzun izlər qoyan şəffaf varlıqları” görməsindən başlayıb. Bundan başqa, həmin varlıqlar çox gözəl mahnıya bənzər qəribə səslər çıxarırdılar və ona elə gəlirdi ki, bu varlıqlar bununla onları əhatə edən sevinci və xoşbəxtliyi ifadə edirdilər. Ancaq Aleksandr onları quşlarla, mələklərlə müqayisə edə bilmir: “Onlar bizim planetimizdə mövcud olan heç nəyə bənzəmirdilər”.

O bunların hansısa ali varlıqlar olduqlarına əmindir. Belə varlıqlardan biri olan naməlum gənc qadın ona qoşulur və mistik kainatda onun bələdçisi olur. O, hətta sirli qadının onunla söhbətlərindən birini xatırlayır: “Sən sevimlisən və səni həmişəlik əzizləyəcəklər. Sən heç nədən qorxmamalısan. Sənin səhv edə biləcəyin heç nə yoxdur. Biz burada sənə çox şeylər göstərəcəyik. Amma sonda sən geri qayıdacaqsan”.

Qadın yavaş-yavaş həkimi “nəhəng boşluğa gətirir, bura tamamilə qaranlıq olsa da, sonsuzluq hiss olunurdu və bununla yanaşı, həm də çox xoş idi”. İndi Aleksandr hesab edir ki, bu boşluq Allahın evi olub. O, tezliklə ayılır. Lakin indi, axirət dünyasına səyahəti yaşadıqdan sonra öz təcrübəsini həmkarları ilə bölüşməyə tələsmir, amma təsəllini kilsədə tapır. Alim oktyabrın sonlarında işıq üzü görəcək “Neyrocərrahın axirət dünyasına səyahəti” adlı kitab da yazıb. “Mən əvvəlki kimi, həkiməm və yenə də elm adamı olaraq qalıram. Lakin daxildə əvvəlki adamdan çox fərqlənirəm. Çünki mən reallığın yeni mənzərəsini görmüşəm”, - Aleksandr deyib.

**Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 200 (5909) 11 avqust 2014

# Kosmosdan almaz düşdü

İngiltərənin "77 Diamons" adlı zinət əşyası firmasının kosmosdan yer kürəsinə atdığı brilyant qaş hər kəsi ayağa qaldırıb. 12 min sterlinq dəyərindəki 1,4 karatlıq almazı tapmaq istəyənlər Lincolnsire şəhərinə üz tutublar. Şirkətin qurucusu olan Tobias Kormind hadisə haqda bunları deyib: "Almazı kim tapsa onun olacaq, məhz bu səbəbdən də hər kəsi dəyərli daşı tapmağa çağırırıq. Almaz reklam məqsədi ilə helium qazı ilə dolu olan bir balona bağlanaraq kosmosa göndərilmişdi. Yerdən 30 min metr yüksəkliyə qalxan balon partladıqdan sonra brilyant qaş Lincolnshire bölgəsinə düşüb. Dəyərli qaşı tapmaq istəyən hər kəs onu axtarır. Bəzilər axtarışlar zamanı telefon, kompüter və durbinlərdən də istifadə edir".






# "Applenin Sam Sung adlı işçisi

Son illərdə texnologiya bazarında ən çox məşhurlaşan Koreyanın "Samsung" firması ilə Amerikanın "Apple" firması arasında qəribə hadisə baş verib. Kanadadakı bir alış-veriş mərkəzindəki "Apple Store" mağazasında çalışan işçisinin adının Sam Sung olması hər kəsin marağına səbəb olur. Ötən həftə işdən çıxan Sam Sung paltarını və yaxa kartını kimsəsiz uşaqlar üçün təşkil edilən hərracda satışa çıxarıb. Üzərində "Apple" işarəsi olan kartda Sam Sung yazılması bir çoxlarının diqqətini çəkib. Onun yaxa kartı 6 min dollara satılıb. O, əldə etdiyi gəliri kimsəsiz uşaqlara bağışlayıb.

# Ağrıkəsici qidalar

Bir yerimiz ağrıdığı zaman həmin anda ağrıkəsici dərmanlar qəbul etməyə çalışırıq. Lakin son illərdə aparılan araşdırmalar nəticəsində məlum olub ki, bəzi qidaların ağrıkəsici təsirləri var:

Qoz: İçərisində bol miqdarda omega 3 olduğundan ağrı və iltihabı azaldır.

Üzüm: Qara üzümün tərkibində olan "resveratrol" maddəsi əzələlərdə və onurğada olan ağrıları aradan qaldırır.

Qəhvə: İdmandan əvvəl içilən qəhvə bədəndəki ağrıları azaldır. Lakin xeyri qədər zərəri də vardır.

Zərdəçal: Bu bitkinin tərkibində olan "curcumin" adlı maddə ağrıları azaldır, damarlardakı tutulmaların qarşısını alır.

Yaşıl yarpaqlı bitkilər: Tərkibində "K" vitamini çox olduğu üçün ağrıları aradan qaldıra bilir.

Gilas: Ağrı kəsici, iltihab azaldıcı xüsusiyyətləri olduğundan təbabətdə istifadə edilir. Qurd xəstəliyinin müalicəsi üçün faydalıdır.

Kərəvəz: Artrit, qurd və fibroma xəstəliklərinin müalicəsində istifadə edilir.

Zəncəfil: 2010-cu ildə aparılan araşdırmalar nəticəsində məlum olub ki, gün ərzində 2-3 qaşıq zəncəfil suyu içmək əzələlərdə olan ağrıları azaldır.

Balıq: Bütün balıqların ağrı kəsici özəllikləri var.





# İngiltərədə gülmə krizi

Son zamanlarda İngiltərədə küçələrdə satılan gülmək qazı hər kəsin diqqət mərkəzindədir. Həkimlər isə bu qazın infarkt və baş gicəllənmə kimi problemlər yaradacağını deyirlər. Qısa müddət üçün kokain təsiri bağışlayan gülmək qazı balonlarda gənclərə satılır. "Daily Mail" qəzetinin xəbərinə görə, içərisində azot da olan bu balonları 3 sterlinqə almaq mümkündür. Azot qazının əlavə təsirlərinə görə 2006-2012-ci illərdə 17 nəfər həyatını itirib. Bu qaz 1 dəqiqə gənclərin özünü yaxşı hiss etməsinə səbəb olur və gülüş hiss yaradır. Lakin çox istifadə edildiyi zaman infarkt və baş gicəllənmələri riskini artırır.




**QOÇ** - Sevgi-ailə münasibətlərində müəyyən mübahisələr gözlənildiyindən bəri başdan buna hazır olmalısınız. Əmin olun ki, bütün münaqişələri yalnız siz yoluna qoya bilərsiniz.

**BUĞA** - Ulduzların düzümü yalnız maliyyə məsələlərində uğurlara yiyələnəcəyinizdən xəbər verir. İstənilən sövdələşmə və ya işbirliyi xeyrinizə olacaq. Risk etməkdən qorxmayın.

**ƏKİZLƏR** - Yaxşı olar ki, bürcünüz haqqındakı bu proqnozu bilən kimi səfərə çıxasınız. Sizin üçün darıxanların çox olduğunu nəzərə alıb tövsiyələrimizə əməl edin. Səs-küylü şəhərdə nə tapmısınız?!

**XƏRÇƏNG** - Havaların qızmarlığını nəzərə alıb vaxtınızı əyləncə və istirahətə həsr edin. Çünki hansısa əməkdaşlıq və ya sövdələşmə uğursuz olacaq. Qonaqlıq və yeni tanışlıq üçün olduqca münasib vaxtdır.

**ŞİR** - Həmişə olduğu kimi indi də ulduzlar maliyyə məsələlərində qənaətcil olmağınızı məsləhət görür. Gələcək planlarınızı düşünün. Nahardan sonra mütləq müqəddəs yerlərə baş çəkin.

**QIZ** - Bu gün sevdiyiniz adamlarla bir yerdə olmağınız sizə rahatlıq gətirəcək. Ötən dövrlərin nostaljisinə qapılmaqdansa nikbin nəzərlərlə gələcəyə baxmağınız məsləhətdir.

**TƏRƏZİ** - İştirakçısı olduğunuz görüşlərdə hövsələsizlik etməyin. Son vaxtlar təmkininizin pozulması ulduzların xoşuna gəlmir. Qeybət amilini isə özünüzdən qətiyyətlə uzaqlaşdırmalısınız.

**ƏQRƏB** - Bəxtinizdə sevgi dolu bir təqvim var. Odur ki, özünüzü məhəbbət ümmanına salmaqla daxili sıxıntılarınızı xeyli azalda bilərsiniz. Maliyyə uğursuzluqlarına görə narahat olmayın.

**OXATAN** - Uğurlu tarix hesab etmək olar. Hansısa gərginlik və ya münaqişə gözlənilmir. Deməli, nəzərdə tutduğunuz vəzifələrin əksəriyyətini reallaşdırmaqda da problemlə üzləşməyəcəksiniz.

**OĞLAQ** - Yay olmasına baxmayaraq, istirahətdən daha çox fəaliyyətə yer ayırmalısınız. Çünki təxminən saat 12-dən sonra şəxsi işlərinizdə əsaslı dönüş yarana bilər. Bu yönümdə sizə dəstək də veriləcək.

**SUTÖKƏN** - Astroloji göstəricilər əsəblərinizdə hələ də gərginlik olduğunu bəyan edir. Nəzərə alsaq ki xoşlamadığınız Ay 17:54-ə qədər bürcünüzdədir, deməli, daha ehtiyatlı olmalısınız.

**BALIQLAR** - Avqustun bu qaynar günündə bütün vacib işlərinizi saat 16-ya qədər başa çatdırmağa çalışın. Çünki sonrakı ərəfədə bütün cəhdləriniz boşa çıxa bilər. İnsanlarla xoş davranın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Qadınları arıqladacaq alt paltarı



Qadınların arıqlamağına kömək edən yeni alt paltarı hazırlanıb. Tabloid.az bildirir ki, bu alt paltarı təkcə qadınların sinələrini saxlamaq üçün nəzərdə tutulmayıb. İngiltərədə Southempton Universitetinin kompüter mühəndisi və professor Makşraefel arıqlamaq istəyən qadınlar üçün ağıllı paltar hazırlayıb. Alt paltarı üzərinə ürək və dərideki fəaliyyətləri izləyən qurğu keçirilib. Bu qurğu sahibəsinin yemək istəyini təhlil edir və çox yemək istədiyini duyduğunda ona siqnallar göndərərək xəbərdarlıq edir. Beləcə, qadının çox yemək yeməsinə əngəl olmağa çalışır.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 10.565